QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



*"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir*

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 216 (5447) 25 **noyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan Prezidenti İlham Əliyev Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammitində iştirak edib



Səh 2

**Heydər Əliyev Fondu fəaliyyətini Çin Xalq Respublikasında genişləndirir**



4

**Nikolay Patruşev və Ramiz Mehdiyev təhlükəsizlik sahəsində Rusiya-Azərbaycan əməkdaşlığı məsələlərini müzakirə ediblər**



3

**Azərbaycan-Pakistan hərbi-texniki əməkdaşlığının perspektivləri barədə müzakirələr aparılıb**



4

**Brüssel Sammitinin Birgə Bəyannaməsində Şərq Tərəfdaşlığı dövlətlərinin ərazi bütövlüyü və suverenliyi bir daha dəstəklənib**



4

**Avropadakı azərbaycanlılar Brüsseldə Avropa Parlamentinin binası qarşısında aksiya keçiriblər**




8

**Mərkəzi Seçki Komissiyasında Qazaxıstan MSK-nın nümayəndə heyəti ilə görüş olub**



6

12

**Erməni mətbuatı Gürcüstana qarşı**



6

**Ermənistanlı zabitlər hərbi xidmətdən boyun qaçırırlar**



16

**2017-ci il Formula-1 Azərbaycan Qran-Prisinin qalibi Bakıya gələcək**



səs

www.sesqazeti.az

facebook Ses Media Holding

25 noyabr 2017-ci il

# Azərbaycan Prezidenti İlham Əliyev Brüsseldə Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammitində iştirak edib







Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun dəvəti ilə noyabrın 24-də Şərq Tərəfdaşlığı Sammitində iştirak edib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısı Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyasında iştirak etmək üçün Avropa İttifaqının binasına gəldi.

Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk, Avropa Komissiyasının prezidenti Jan-Klod Yunker və Avropa İttifaqına sədrlik edən Estoniyanın Baş naziri Yuri Ratas dövlətimizin başçısını salamladılar. Sonra Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyası oldu. Prezident İlham Əliyev sessiyada çıxış etdi.

Qeyd edək ki, Şərq Tərəfdaşlığı Polşa və İsveçin Avropa İttifaqının qonşuluq siyasəti çərçivəsində MDB ölkələri ilə münasibətlərin yaxşılaşdırılmasına yönəlmiş təşəbbüsüdür. “Şərq tərəfdaşlığı” Azərbaycan da daxil olmaqla Avropa İttifaqının altı qonşu ölkəsini əhatə edir.

Budəfəki Sammitdə Avropa İttifaqına üzv dövlətlər altı Şərq tərəfdaşı ölkəsinin dövlət və hökumət başçıları ilə gələcək əməkdaşlığı müzakirə etdilər. Onlar, həmçinin Şərq Tərəfdaşlığı ölkələrinin vətəndaşlarına təsirli faydaların verilməsinə xüsusi diqqət yetirərək, Riqa Sammitindən sonrakı nailiyyətləri qiymətləndirdilər.

Artıq Şərq Tərəfdaşlığına doğru nəticələrə yönəlmiş yanaşmanı dəstəkləmək üçün Avropa İttifaqı 2020-ci ilədək əldə olunacaq 20 əsas nəticəni müəyyənləşdirib. Əsas mərhələlərin isə məhz Brüssel Sammitində müəyyənləşdirilməsi nəzərdə tutulmuşdu.

Şərq Tərəfdaşlığı Sammitinin plenar sessiyası başa çatandan sonra birgə foto çəkdirildi. Sonda dövlət və hökumət başçılarının şərəfinə işçi nahar verildi. Bununla da Prezident İlham Əliyevin Brüsselə işgüzar səfəri başa çatdı.




## Rəsmi xronika

Prezident İlham Əliyev Misir Prezidenti Əbdülfəttah əs-Sisiyə başsağlığı verib. Başsağlığında deyilir: “Hörmətli cənab Prezident, Ər-Rauda məscidinə silahlı hücum nəticəsində çoxsaylı insan tələfatı və yaralananlar barədə xəbər bizi olduqca kədərləndirdi. Biz dinc insanlara qarşı yönəlmiş bu dəhşətli terror aktından son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərinə qarşı ən sərt şəkildə, qətiyyətlə və ardıcıl mübarizə aparılmasını zəruri və vacib hesab edirik. Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Misir xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm”.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Draqan Çoviçə təbrik məktubu göndərib. Təbrikdə deyilir: “Hörmətli cənab Sədr, Bosniya və Herseqovinanın milli bayramı - Dövlətçilik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Bosniya və Herseqovina arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeləri naminə bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir. Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Bosniya və Herseqovinanın dost xalqına daim sülh və firavanlıq diləyirəm”.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Gülnar Akif qızı Rəsulovaya “Əməkdar dövlət qulluqçusu” fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb.

# Nikolay Patruşev və Ramiz Mehdiyev təhlükəsizlik sahəsində Rusiya-Azərbaycan əməkdaşlığı məsələlərini müzakirə ediblər


Официальные сайты органов государственной власти Российской Федерации

Совет Безопасности Российской Федерации

Новости и информация | Совет Безопасности РФ | Национальная безопасность | О Совете Безопасности РФ

Секретарь Совета Безопасности РФ провел двусторонние переговоры с коллегами из государств-участников Содружества Независимых Государств

24 ноября 2017 года

Николай Патрушев и Руководитель Администрации Президента Азербайджанской Республики Рамиз Мехтиев обсудили текущие вопросы российско-азербайджанского сотрудничества в сфере безопасности и подписали план сотрудничества, предусматривающий постоянный обмен информацией и проведение консультаций на уровне экспертов советов безопасности, правоохранительных органов и спецслужб двух государств.

Также планы сотрудничества были подписаны по результатам встреч Н.Патрушева с Государственным секретарем Совета Безопасности Республики Беларусь Станиславом Засем, Секретарем Совета Безопасности при Президенте Республики Узбекистан Виктором Махмудовым.

Протокол о взаимодействии между аппаратами советов безопасности подписан Секретарем Высшего Совета Безопасности Республики Молдова Артуром Гуменюком и Секретарем Совета Безопасности РФ Н.Патрушевым. Стороны выразили намерение развивать сотрудничество по широкому кругу вопросов, относящихся к обеспечению национальной, европейской и международной безопасности в интересах обеих стран.

Поделиться:
Фейсбук
Вконтакте
Твиттер
Гугл плюс
Распечатать

Смотрите также
В Москве прошли российско-

Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev və Azərbaycan Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev təhlükəsizlik sahəsində Rusiya-Azərbaycan əməkdaşlığının cari məsələlərini müzakirə edib və iki dövlətin təhlükəsizlik şuralarının, hüquq mühafizə orqanlarının və xüsusi xidmətlərinin ekspertləri səviyyəsində daimi informasiya mübadiləsini və məsləhətləşmələr aparılmasını nəzərdə tutan əməkdaşlıq planını imzalayıblar.

AZƏRTAC xəbər verir ki, N.Patruşevin Belarus Respublikası Təhlükəsizlik Şurasının dövlət katibi Stansilav Zas və Özbəkistan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının katibi Viktor Mahmudov ilə görüşlərinin yekunlarına əsasən əməkdaşlıq planları da imzalanıb. Moldova Respublikasının Ali Təhlükəsizlik Şurasının katibi Artur Qumenyuk ilə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi N.Patruşev iki dövlətin təhlükəsizlik şuraları aparatları arasında qarşılıqlı fəaliyyət haqqında protokol imzalayıblar. Tərəflər hər iki ölkənin mənafeyi üçün milli, Avropa və beynəlxalq təhlükəsizliyin təmin olunmasına aid məsələlərin geniş dairəsi üzrə əməkdaşlığı inkişaf etdirmək niyyətində olduqlarını bildiriblər.

Tacikistan Respublikası Təhlükəsizlik Şurasının katibi Abdurahim Kahharov ilə görüşdə iki dövlətin güc strukturlarının və xüsusi xidmətlərinin qarşılıqlı fəaliyyətinə dair məsələlər müzakirə edilib.

***Fəridə Abdullayeva***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Moskva***

# Azərbaycanın və Gürcüstanın Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb



Gürcüstanda səfərdə olan Azərbaycan Xarici İşlər Nazirliyinin II Avropa İdarəsinin rəisi İlqar Muxtarov noyabrın 24-də bu ölkənin Xarici İşlər Nazirinin birinci müavini David Zalkaliani ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə iki ölkə arasında siyasi məsləhətləşmələr çərçivəsində ikitərəfli siyasi, iqtisadi və mədəni əlaqələrin inkişaf perspektivləri, eləcə də beynəlxalq və regional təşkilatlarda əməkdaşlıq məsələləri müzakirə olunub. Söhbət zamanı, həmçinin bu cür görüşlərin davamlı olması, qarşılıqlı səfərlərin təşkili, intensivləşdirilməsi, ticarət dövriyyəsinin artırılması barədə fikir mübadiləsi aparılıb.




# "Xocalıya Ədalət!" beynəlxalq kampaniyasının Mərakeşdə təqdimatı keçirilib




***İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun (İƏT GF) təşəbbüsü ilə həyata keçirilən "İslam Dünyası Gənclər Paytaxtı" layihəsi çərçivəsində Mərakeş Krallığının Fəs şəhərində "Ekstremizm və zorakılığın qarşısının alınmasında gənclərin rolu" mövzusunda beynəlxalq forum təşkil olunub.***

İƏT GF-dən AZƏRTAC-a bildiriblər ki, forumda İƏT-ə üzv ölkələrdən gənc liderlər və gənclər hərəkatlarının nümayəndələri, aparıcı universitetlərin professorları, müxtəlif beynəlxalq qeyri-hökumət təşkilatlarının rəhbərləri və təmsilçiləri, eləcə də yerli dövlət qurumlarının rəsmiləri iştirak ediblər.

Forumda son dövrdə müasir dünyanın bəlasına çevrilən, əsasən də müsəlman ölkələrini hədəf alan ekstremizm, radikalizm və münaqişələr fonunda zorakılığın qarşısının alınması və bu istiqamətdə gənclərin qarşısında duran vəzifələr müzakirə olunub, müvafiq qərarlar qəbul edilib.

Tədbirdə İƏT Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən və Dağlıq Qarabağ münaqişəsi haqqında obyektiv məlumatların dünya ictimaiyyətinə çatdırılması, Xocalı faciəsinə beynəlxalq ictimaiyyət tərəfindən ədalətli siyasi-hüquqi qiymətin verilməsi məqsədi daşıyan "Xocalıya Ədalət!" beynəlxalq təbliğat kampaniyasının təqdimatı keçirilib.

İƏT Gənclər Forumunu təmsil edən Sevinc İsgəndərova "Xocalıya Ədalət!" beynəlxalq kampaniyası ilə bağlı təqdimatla çıxış edərək, onun məqsəd və vəzifələri, eləcə də 2009-cu ildən etibarən kampaniya çərçivəsində görülən işlər barədə məlumat verib. Mərakeşin Gənclər və İdman Nazirliyinin rəhbər nümayəndələri, hüquqşünaslar və ekspertlər çıxışlarında belə faciələri, o cümlədən Xocalıda insanlıq əleyhinə törədilən soyqırımını pisləyib, bu cür qətliamların bəşəriyyətə qarşı ən qanlı cinayət olduğunu bildiriblər.

Xatırladaq ki, "Xocalıya Ədalət!" beynəlxalq məlumatlandırma kampaniyası 2009-cu ildə Heydər Əliyev Fondunun vitse-prezidenti, İƏT Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla Əliyevanın təşəbbüsü ilə başlayıb. Əlidən artıq ölkəni əhatə edən kampaniyanın uğurla həyata keçirilməsi nəticəsində dünyanın bir sıra ölkələrinin parlamentləri, həmçinin İƏT Xarici İşlər Nazirləri Şurası və İƏT Parlament İttifaqı Xocalı qətliamını soyqırımı aktı və insanlığa qarşı cinayət kimi tanıyıb.

# Heydər Əliyev Fondu fəaliyyətini Çin Xalq Respublikasında genişləndirir



Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovun başçılıq etdiyi nümayəndə heyəti Çin Xalq Respublikasının paytaxtı Pekində bir sıra təşkilatlarla əməkdaşlıq perspektivlərini müzakirə edib.

AZƏRTAC xəbər verir ki, Fondun icraçı direktoru Anar Ələkbərovun Çinin Xarici Ölkələrlə Xalq Dostluq Cəmiyyətinin sədri xanım Li Siaoli, Cəmiyyətin sədr müavini Sun Cinvu ilə görüşündə Heydər Əliyev Fondu və Çinin Xarici Ölkələrlə Xalq Dostluq Cəmiyyətinin fəaliyyət istiqamətləri, gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

Anar Ələkbərov Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Çin Xalq Respublikası ilə ikitərəfli əməkdaşlığa xüsusi önəm verdiyini bildirib. Yaxın dostluq münasibətlərinin gələcəkdə daha da genişləndirilməsi üçün Çinin Xarici Ölkələrlə Xalq Dostluq Cəmiyyəti ilə əməkdaşlığa Heydər Əliyev Fondunun dəstək göstərməyə hazır olduğu qeyd edilib. Anar Ələkbərov gələcək layihələrin müzakirəsi məqsədilə xanım Li Siaolini Azərbaycana dəvət edib.

Çinin Xarici Ölkələrlə Xalq Dostluq Cəmiyyətinin sədri Li Siaoli Azərbaycan ilə əlaqələrin genişlənməsi üçün hərtərəfli imkanların olduğunu bildirib. O, məmnuniyyətlə Azərbaycana səfər edəcəyini deyib.

Azərbaycanın Çindəki səfiri Əkrəm Zeynallı, eyni zamanda, iki ölkənin sürətli inkişafı və gələcəkdə bütün sahələrdə birgə əməkdaşlığın reallaşdırılması barədə danışaraq, Heydər Əliyev Fondunun nəzərdə tutulan layihələrinin ölkələr və xalqlar arasında münasibətlərin daha da yaxınlaşmasına xidmət edəcəyini bildirib. Görüşdə Heydər Əliyev Fondu ilə Çinin Xarici Ölkələrlə Xalq Dostluq Cəmiyyətinin bu istiqamətdə geniş imkanlara malik olduğu qeyd edilib.

Sonra Heydər Əliyev Fondu ilə Çinin Xarici Ölkələrlə Xalq Dostluq Cəmiyyəti arasında dostluq və əməkdaşlıq haqda Memorandum imzalanıb.

Azərbaycan nümayəndə heyəti Çinin Xarici Ölkələrlə Xalq Dostluq Cəmiyyətinin muzeyi ilə tanış olub. Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Çin Beynəlxalq Ticarətin Təbliğatı Agentliyinin sədr müavini Van Cincen ilə də görüşüb.

Danışıqlar zamanı "Bakı Ekspo 2025"in təqdimatı olub, eyni zamanda, 2019-cu ildə Pekində keçiriləcək bağçaçılıq sərgisinə dair müzakirələr aparılıb. Çin Beynəlxalq Ticarətin Təbliğatı Agentliyinin sədr müavini Van Cincen "Bakı Ekspo 2025"in təqdimatına və Azərbaycanın "Pekin 2019" sərgisində iştirakına qərar verdiyinə görə məmnunluğunu bildirib. Görüşdə "Pekin Ekspo 2019" və Bakının 2025-ci ildə keçiriləcək Ümumdünya Sərgisinə namizədlik məsələləri ilə bağlı davamlı müzakirə barədə razılıq əldə olunub.

# Dövlət Gömrük Komitəsinin sədri Daşkəsən şəhərində vətəndaşları qəbul edib



Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həlli üçün müvafiq tədbir görürlər. Noyabrın 24-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Aydın Əliyev Daşkəsən şəhərində vətəndaşları qəbul edib.

Komitənin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Aydın Əliyev qəbuldan öncə ulu öndər Heydər Əliyevin Daşkəsən şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi düzüb.

Qəbulda bölgədə yerləşən - Daşkəsən, Göygöl, Samux rayonları və Gəncə şəhər sakinlərinin müraciətləri dinlənilib. Vətəndaşların müraciətləri əsasən gömrük orqanlarında işə qəbul və digər gömrük məsələləri ilə bağlı olub. A.Əliyev hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib və qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlarını verib.

# Azərbaycan-Pakistan hərbi-texniki əməkdaşlığının perspektivləri barədə müzakirələr aparılıb



Noyabrın 24-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Pakistan İslam Respublikasının Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Zübair Mahmud Hayatın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan Respublikası ilə Pakistan İslam Respublikası arasında dostluq və strateji tərəfdaşlıq münasibətlərinin inkişafı məmnunluq hissi ilə qeyd olunub, sərhəd təhlükəsizliyi və hərbi-texniki əməkdaşlıq sahələrində qarşılıqlı faydalı münasibətlərin perspektivləri müzakirə edilib, bu əməkdaşlığın uğurla inkişaf etdirilməsi istiqamətində birgə fəaliyyətin davam etdirilməsinin vacibliyi vurğulanıb.

Azərbaycan Respublikasının dövlət sərhədlərindəki mövcud əməliyyat şəraiti, sərhəd təhlükəsizliyinə olan təhdidlər, o cümlədən Ermənistanın təcavüzü nəticəsində ölkə ərazisinin 20 faizinin və dövlət sərhədlərinin bir hissəsinin işğal altında qalması, bu ərazilərin qeyri-qanuni məqsədlərlə istifadə edilməsi, transsərhəd cinayətkarlığa qarşı mübarizə sahəsində həyata keçirilən tədbirlər, sərhəd mühafizə sisteminin gücləndirilməsi, maddi-texniki bazanın təkmilləşdirilməsi üzrə görülmüş işlər və əldə olunmuş nailiyyətlər barədə qonaqlara məlumat verilib.

Müzakirələr zamanı regionda cərəyan edən hadisələr, sərhəd təhlükəsizliyinə qarşı çağırışlar ətrafında fikir mübadiləsi aparılıb.

# Brüssel Sammitinin Birgə Bəyannaməsində Şərq Tərəfdaşlığı dövlətlərinin ərazi bütövlüyü və suverenliyi bir daha dəstəklənib

*Ermənistan tərəfinin bu sənədə onun işğalçı maraqlarına uyğun maddələrin əlavə edilməsi cəhdləri puça çıxıb*

Noyabrın 24-də Avropa İttifaqının Brüsseldə keçirilən Şərq Tərəfdaşlığı Sammitində Birgə Bəyannamə qəbul edilib. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Ermənistan nümayəndə heyətinin çoxsaylı cəhdlərinə baxmayaraq, Birgə Bəyannamədə Şərq Tərəfdaşlığının bütün dövlətlərinin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi birmənalı olaraq bir daha dəstəklənib. Xüsusi vurğulanmalıdır ki, Birgə Bəyannamədə Avropa İttifaqının Xarici Siyasət və Təhlükəsizlik Qlobal Strategiyasına istinad edilib. Xatırladaq ki, bu Qlobal Strategiyada Avropa İttifaqının üzv və qonşu dövlətlərinin ərazi bütövlüyü beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində qeyd edilib.



Birgə Bəyannamənin digər bəndində Şərq Tərəfdaşlığı ölkələrinin ərazilərində baş verən bütün münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri əsasında həll olunması vurğulanıb.

Ermənistan tərəfinin bu bəndə onun işğalçı maraqlarına cavab verən maddələrin əlavə edilməsi cəhdləri puça çıxıb. Birgə Bəyannamədə Azərbaycan Respublikasının fəal iştirakı ilə həyata keçirilən nəqliyyat və enerji layihələrinə xüsusi dəstək qeyd edilib, təşəbbüskarı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev olan "Cənub Qaz Dəhlizi" layihəsinin Avropa İttifaqı üçün strateji əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Sənəddə Azərbaycan Respublikasının iştirakı ilə Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələri ilə həyata keçirilən ikitərəfli və çoxtərəfli layihələrə xüsusi diqqət yetirilib. Gələcək illər üçün Şərq Tərəfdaşlığı ölkələri ilə həyata keçiriləcək birgə əməkdaşlıq istiqamətləri sırasında Azərbaycan Respublikasının Avropa İttifaqı ilə vizasız gediş-gəliş sənədlərinin işlənməsi xüsusi yer alıb. Həmçinin sənəddə Azərbaycanın iştirak etdiyi digər beynəlxalq əməkdaşlıq sahələri də qeyd edilib.

Bir sıra mütəxəssislərin fikrincə, Brüssel Sammitində qəbul edilən Birgə Bəyannamə mahiyyətinə görə beynəlxalq hüquqa əsaslanan və strateji əhəmiyyət daşıyan sənəd kimi qiymətləndirilməlidir.

# Beynəlxalq terrorizmin və etnik separatizm kimi təhlükələrin aradan qaldırılması mühüm əhəmiyyət kəsb edir

***Yunanıstanın paytaxtı Afina şəhərində Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Nazim İbrahimov, Avropa İttifaqı və Aralıq dənizi hövzəsi ölkələrinin nüfuzlu dövlət və siyasi xadimlərinin iştirakı ilə və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin "Marianna V.Vardinoyannis" Fondu ilə əməkdaşlığı çərçivəsində VI Qlobal Bakı Forumuna hazırlıq məqsədilə "Avro-Aralıq dənizi tərəfdaşlığının humanitar problemlərinin həlli" mövzusunda XIII Yüksək Səviyyəli Toplantı keçirilib. Beynəlxalq tədbirdə Aralıq dənizi hövzəsindəki humanitar böhranların qarşısının alınması üçün ideya və təşəbbüsləri bölüşmək, miqrasiya, inteqrasiya, milli kimlik və multikulturalizm, xüsusilə də, separatizm və öz müqəddəratını təyin etmək məsələləri müzakirə olunub.***



Müzakirələrdə Aralıq dənizi ölkələrində hələ də bir çox problemlərin mövcudluğu, bu problemlərin aradan qaldırılması üçün Avropanın konkret mexanizm qəbul etməsinin vacibliyi vurğulanıb və görünən odur ki, mövcud problemlərin həlli istiqamətində müvafiq tədbirlər görülməsi üçün Avropanın konkret fəaliyyət sərgiləməsi gözlənilir. BMT-nin insan hüquqlarının qorunması istiqamətində təşəbbüsləri olsa da, təəssüf ki, bunun, sülhün tam bərqərar olması üçün kifayət etmədiyini, qaçqın problemlərinin olmasını nəzərə çatdırmaqla iştirakçılar, beynəlxalq təşkilatlar tərəfindən daha təsirli mexanizmlərin tətbiqinə və əməli tədbirlərin görülməsinə ümid edirlər.

Sözsüz ki, qaçqın və miqrant problemlərinin, insan alverinin, qaçaqmalçılığın, siyasi və iqtisadi sabitliyə, nəqliyyat-enerji təhlükəsizliyinə qarşı yönəlmiş təhdidlərin aradan qaldırılmasındakı çətinliklər hamını narahat edir və bu təhdidlər içərisində etnik separatizm və onun mənfi təzahürləri xüsusi yer tutur. Bu baxımdan, Aralıq dənizi hövzəsində beynəlxalq terrorizmin və etnik separatizm kimi təhlükəli meyillərin doğurduğu böhranın həlli yollarının axtarılması, bəşəriyyətin sülh və əmin-amanlıq şəraitində yaşamasına mənfi təsir göstərən amillərin aradan qaldırılması ilə bağlı müzakirələrin aparılması mühüm əhəmiyyət kəsb edir. Çünki hazırda 220 milyon nəfərdən çox əhalini, 12,7 milyon kvadratkilometrə yaxın ərazini əhatə edən 50-dən çox etnik separatizm ocağı olan dünyada yaranan münaqişələrin 20-dən çoxu hərbi toqquşmalarla müşayiət olunur və beynəlxalq hüququn kobud şəkildə pozulması, dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə qarşı ciddi təhdidlərin yaranması ilə müşahidə olunan bu münaqişələr regionun sabitliyini hər an poza biləcək potensial təhlükə mənbəyidir.

Əslində, tədbirdə natiqlərin "Avropada yaşamaqla yox, onun mədəniyyətini, tolerantlığını qəbul etməklə avropalı olmaq mümkündür" ifadəsi, etnik separatçılığa qarşı qətiyyətli, prinsipial şəkildə mübarizə aparılmasına maneçilik törədən və beynəlxalq münasibətlər sistemində hökm sürən "ikili standartlar" siyasəti yürüdən BMT, ATƏT və Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatlara ünvanlanmış bir mesaj idi. Təbii ki, aparıcı beynəlxalq təşkilatlar tərəfindən təsdiq olunmuş və etnik separatçılığın aradan qaldırılmasını nəzərdə tutan mübarizə metodlarına, həmçinin, cinayətkarların cəzalandırılması mexanizmini özündə ehtiva edən hüquqi normalara bütün dünya dövlətlərinin əməl edib-etməməsi məsələsinə biganə yanaşması, BMT, ATƏT, Avropa Şurası kimi təşkilatların obyektivliyinin, prinsipiallığının üzərinə kölgə salır və bu da dünya ictimaiyyətinin diqqətindən yayına bilməz. Ona görə ki, Azərbaycanın həqiqətləri, işğalçılar tərəfindən təcavüzə məruz qalmış torpaqlar, separatçılar tərəfindən yurd-yuvalarından didərgin salınmış məcburi köçkünlər barədə həqiqətlər bütün dünyaya bəllidir və bütün bunlarda günahkar işğalçı rejim - Ermənistan olduğu danılmazdır. Dünya ictimaiyyətinə o da bəllidir ki, Ermənistanın işğalçılıq siyasətinə qarşı BMT-nin qətnamələri, Avropa Şurasının qərarları kimi hüquqi qiymət verilib, işğalçı dövlət qarşısında tələblər qoyulub, amma hələ də icrasız qalır. Bütün bunlarla yanaşı, nüfuzlu beynəlxalq təşkilatların hələ də Ermənistanın qərar və qətnamələrə, beynəlxalq hüquqi normalara etinasızlığına və hörmətsizliyinə göz yumduğu da dünya ictimaiyyətinin diqqətindən kənarda deyil. Eyni zamanda, bütün bu həqiqətlər fonunda Azərbaycana, işğalçıların təcavüzünə məruz qalmış ölkəyə qarşı qərəzli münasibət və ikili standart nümayiş etdirən təşkilatların ədalətsiz mövqeyi də ictimaiyyətin diqqətindədir. Beynəlxalq hüquqa saygısız münasibət göstərən Ermənistanın bu saymazlığına nüfuzlu təşkilatların etinasızlığı, öz növbəsində, bu təşkilatların da hüquq normalarına hörmətsizliyindən xəbər verir və bu da, onu deməyə əsas verir ki, həqiqətən də, avropalı olmaq, Avropa mədəniyyətinə sahib olmaq üçün Avropada yaşamaq şərt deyil, Avropanın mədəniyyətini, tolerantlığını qəbul etməklə avropalı olmaq mümkündür.

Azərbaycan 1993-cü ildən etibarən Avropa İttifaqı ilə münasibətlərdə maraqlı olduğunu bəyan edib və bu qurumla müxtəlif sahələrdə əlaqələrə həssas yanaşıb və görünür, elə buna görə də, "Qonşuluq siyasəti" və "Şərq tərəfdaşlığı" proqramları çərçivəsində, o cümlədən, vətəndaş cəmiyyəti quruculuğu prosesində Azərbaycanın gördüyü işlər Aİ tərəfindən yüksək qiymətləndirilib. Cənubi Qafqaz və Xəzər-Qara dəniz hövzəsinin regional təhlükəsizliyi ilə bağlı Azərbaycanla Aİ-nin geosiyasi maraqları üst-üstə düşür və bu qurumu təmsil edən böyük transmilli korporasiyalar bölgədə həyata keçirilən transmilli layihələrdə yaxından iştirak edirlər. Bu, o deməkdir ki, beynəlxalq təşkilatların ikili standartlar siyasətinə və ədalətsiz mövqeyinə baxmayaraq Avropa mədəniyyətini, tolerantlığı elə Azərbaycan özü sərgiləyib və bu mədəniyyət bizə, Azərbaycana məxsusdur.

"Avro-Aralıq dənizi tərəfdaşlığının humanitar problemlərinin həlli" mövzusunda XIII Yüksək Səviyyəli Toplantıda dünyada yeni yaradılan enerji layihələrinin əhəmiyyəti, xüsusilə qeyd olunaraq, Azərbaycanın bu sahədə verdiyi töhfələr dəyərləndirilib. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, o cümlədən, Bakı-Tbilisi-Qars dəmir yolu kimi transmilli enerji-nəqliyyat layihələrinin həyata keçirilməsi Azərbaycan ilə Avropa İttifaqı arasındakı strateji tərəfdaşlığı sayəsində mümkün olub və Azərbaycanın Xəzər hövzəsinin enerji resurslarının birgə istismarı və alternativ transmilli layihələr vasitəsilə Avropa bazarlarına ixracı sahəsində apardığı siyasət, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri çərçivəsində çoxsaylı tranzit sistemlərinin müasir tələblərə uyğun yenidən qurulması Aİ tərəfindən də dəstəklənir. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən Trans-Anadolu qaz kəməri (TANAP) və Trans-Adriatik qaz boru kəməri (TAP) kimi layihələr Aİ-nin lazımi dəstəyini qazanıb və Avropa Komissiyasının ortaq maraqlara xidmət edən prioritet enerji təhlükəsizliyi layihələri sırasına daxil edilib. Xəzər hövzəsinin və Orta Şərqin zəngin enerji ehtiyatlarını Avropa bazarlarına çatdırmağı nəzərdə tutan "Cənub Qaz Dəhlizi" layihəsi ilə bağlı Azərbaycanın gördüyü işlər Aİ tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan yalnız Avropa İttifaqının enerji təminatı və təhlükəsizliyi baxımından, habelə, "Qonşuluq siyasəti"nin əsas tərəfdaşlarından biri kimi deyil, həmçinin, təhlükəsiz hava dəhlizinin təqdim olunması istiqamətində fəaliyyəti ilə Qərbin etibarlı tərəfdaşı hesab olunur. Göründüyü kimi, Azərbaycan Avropa İttifaqı ilə yüksək səviyyədə tərəfdaşlıq münasibətlərinə sadiqdir və bir-birinin ardınca imza atdığı uğurlu layihələr də bunu təsdiqləyir. Lakin istər Avropa İttifaqı, istər BMT, istərsə də Avropa Şurası kimi nüfuzlu beynəlxalq qurumlar nəzərə almalıdırlar ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kimi hələ də həllini tapmamış problemlər Azərbaycanın yüksək səviyyədə tərəfdaşlıq münasibətlərinin inkişaf etməsinə əngəl törətməkdədir. Bu baxımdan, münaqişə ilə bağlı BMT-nin, o cümlədən, Aİ-nin müvafiq qətnamələrinin tələblərinə baxmayaq, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirməsinə qarşı sərt tədbirlər həyata keçirilməli, işğalçı rejimin beynəlxalq hüquq normalarına sığmayan hərəkətlərinə son qoyulmalıdır. Bir sözlə, Aİ-nin işğalçı dövlətə qarşı sərt mövqedən çıxış etməsi bu qurumla Azərbaycan arasındakı strateji tərəfdaşlıq əlaqələrini möhkəmləndirən növbəti mühüm amillərdəndir.

***İnam Hacıyev***

## Avropa İttifaqı Ermənistanı ofşor ölkələrin qara siyahısına daxil edə bilər



Avropa İttifaqı Ermənistanı şirkət və fərdi şəxslərin milli vergitutmadan yayınaraq maliyyə fəaliyyəti göstərən ofşor ölkələrin siyahısına daxil edə bilər. AZƏRTAC xəbər verir ki, bu barədə "Bloomberg" agentliyi məlumat yayıb. Avropa İttifaqı bununla bağlı Ermənistana dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq vəziyyət düzəlmir. Beynəlxalq qurumun ayrılan pulların mənimsənilməsi səbəbindən hər il 1 milyard avro itirdiyi bildirilir. Bunun əsas hissəsi Ermənistanın üzərinə düşür. Ötən il Avropa İttifaqı bu ölkəyə maliyyə yardımını dayandıracağı ilə bağlı xəbərdarlıq da edib. Çünki beynəlxalq qurum büdcədən ayrılan vəsaitin məqsədyönlü şəkildə xərclənməsinin marağında olsa da, Ermənistanda daim problemlərlə üzləşir. Hakimiyyət bu pulları istiqaməti üzrə yox, başqa məqsədlərə xərcləyir. Ona görə də Ermənistanda hər ötən il iqtisadi böhran bir qədər də dərinləşir.

2018-ci ildə də Ermənistanın büdcə kəsiri və dövlət borcu artacaq. Bu haqda parlamentin büdcə müzakirələri zamanı ölkənin Mərkəzi Bankının hesabatında məlumat verilib. Bildirilir ki, ölkənin xarici borcu artıq gəlirləri 60 faiz üstələyir. Gələn il büdcə kəsiri 156,9 milyard dram təşkil edəcək ki, bu da 2017-ci il dövlət büdcəsinin göstəricisi ilə müqayisədə 3,8 faiz çoxdur. Bundan başqa, 2018-ci ilin yekunu üzrə Ermənistanın dövlət borcu 7 milyard dollara yaxınlaşacaq. Bu isə defoltu sürətləndirəcək.

İqtisadçı Vahan Arzumanyan hökumətin özünü gülünc vəziyyətə qoyduğunu deyib. O bildirib ki, Ermənistan ciddi siyasi, sosial-iqtisadi və demoqrafik böhranla qarşı-qarşıyadır. Bununla yanaşı, hakimiyyətdə olan cinayətkar, kriminal rejimin qəbul etdiyi qərarlar vətəndaşların haqlı etirazına səbəb olur. Ona görə də ölkədə tez-tez xaos və qarşıdurmalar baş verir. Hakimiyyət yalançı manevrləri davam etdirməyə çalışsa da, Ermənistan faktiki olaraq böhran içindədir. Sosial problemləri aradan qaldırmaq üçün kifayət qədər güc və potensiala malik olmaması nəticəsində ortaya çıxan problemlər isə hökumətlə sadə vətəndaş arasında ciddi qarşıdurmaya zəmin yaradır.

# Qafqaz Müsəlmanları İdarəsinin sədri Sankt-Peterburqda bir sıra görüşlər keçirib



Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri şeyxülislam Allahşükür Paşazadə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin vitse-qubernatoru Aleksandr Qovorunov ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Azərbaycan-Rusiya münasibətlərindən danışan QMİ sədri xalqlarımız arasındakı əlaqələrin qədim tarixə malik olduğunu vurğulayıb. O, Azərbaycan və rus xalqlarının sıx humanitar əlaqələr qurduqlarını söyləyib.

Aleksandr Qovorunov qeyd edib ki, hazırda Sankt -Peterburqda 400 minə yaxın azərbaycanlı yaşayır və bu şəhərlə Azərbaycan arasında əlaqələr uğurla inkişaf edir. Təkcə bu ilin birinci yarısında ticarət dövriyyəsi 4,5 dəfə artıb.

Allahşükür Paşazadə, həmçinin Sankt-Peterburq Qanunvericilik Məclisinin sədri Vyaçeslav Makarov ilə görüşüb. Görüşdə bildirilib ki, Azərbaycan ilə Rusiya arasında hazırda müxtəlif sahələrdə 200-dən çox dövlətlərarası və hökumətlərarası sənəd imzalanıb. Ticari-iqtisadi əlaqələrin daha da genişləndirilməsi üçün böyük imkanlar mövcuddur. Söhbət zamanı sosial, mədəni, humanitar sahələrdə də qarşılıqlı münasibətlərin dinamik inkişaf etdiyi vurğulanıb.

## Fövqəladə hallar naziri Zərdabda vətəndaşları qəbul edib



Noyabrın 24-də fövqəladə hallar naziri Kəmaləddin Heydərov Zərdab şəhərində Ucar, Göyçay, Kürdəmir və Zərdab rayonlarının sakinlərinin, həmçinin həmin rayonlarda məskunlaşmış məcburi köçkünlərin qəbulunu keçirib. AZƏRTAC xəbər verir ki, fövqəladə hallar naziri tərəfindən qəbul edilən 20 vətəndaşın müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib. Bundan başqa, kadr məsələləri ilə bağlı 64, digər məsələlərlə əlaqədar müraciət etmiş 97 vətəndaş nazir müavinləri və nazirliyin müvafiq baş idarə və qurum rəhbərliyi tərəfindən qəbul olunub.

## Baş prokuror Bərdədə vətəndaşları qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması ilə bağlı tapşırıqları prokurorluq orqanları tərəfindən daim diqqətdə saxlanılaraq vətəndaşların qəbulu, onların ərizə və şikayətlərinə baxılaraq həll olunması üçün müvafiq tədbirlər görülür. Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, baş prokuror Zakir Qaralov noyabrın 24-də Bərdə Rayon Prokurorluğunun inzibati binasında Mingəçevir şəhərindən, Bərdə, Yevlax, Ağdaş, Ucar və Zərdab rayonlarından olan vətəndaşları qəbul edib.

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbuldan əvvəl baş prokuror Zakir Qaralov və Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev xalqımızın ümummilli lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstələri düzərək Ulu Öndərimizin əziz xatirəsini ehtiramla yad ediblər. Baş Prokurorluğun məsul əməkdaşlarının, habelə əlaqədar tabe prokurorların iştirakı ilə keçirilən qəbulda 17 vətəndaş qəbul edilib. Onların müraciətlərində qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Qəbul zamanı, həmçinin müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verilib.

Vətəndaşlar bölgə sakinlərinin yerlərdə qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını bildirib, göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

# Sevinc Fətəliyeva: NATO Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verir



"Dövlətimizin xarici siyasətində beynəlxalq təşkilatlarla münasibətlərin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biridir. Bu siyasətin nəticəsi olaraq Azərbaycan dünyanın ən mötəbər beynəlxalq təşkilatlarının - BMT, ATƏT, Avropa Şurası, İslam Konfransı Təşkilatı və digər mötəbər qurumların üzvü kimi onların işində yaxından iştirak edir. O cümlədən, beynəlxalq təhlükəsizlik strukturları ilə əməkdaşlıq da aparıcı xətt təşkil edir. Bu istiqamətdə NATO ilə əlaqələr xüsusilə qeyd olunmalıdır". Bu fikirləri Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva deyib. S.Fətəliyeva bildirib ki, noyabrın 23-də Prezident İlham Əliyevin Brüsselə səfəri zamanı NATO-nun baş katibi Yens Stoltenberqlə görüşü və NATO-nun Şimali Atlantika Şurasının iclasında iştirakı əlaqələrin inkişafı baxımından böyük əhəmiyyət kəsb edir. Onun sözlərinə görə, Azərbaycan-NATO əlaqələri ölkəmizin Avratlantik strukturlara inteqrasiyasının tərkib hissələrindən biridir. Bu əməkdaşlıq Azərbaycanın 1994-cü ildə "Sülh naminə tərəfdaşlıq" Proqramına qoşulması ilə başladı.

"1994-cü ildən başlayaraq Azərbaycan-NATO əlaqələri yüksələn xətlə inkişaf edir. Antiterror koalisiyasının üzvü olan Azərbaycanın hərbi bölmələri bu müddətdə NATO qüvvələri tərkibində keçirilən sülhyaratma missiyasında yaxından iştirak edir. Bu o deməkdir ki, Azərbaycan regional müstəvi ilə yanaşı, qlobal miqyasda da təhlükəsizliyə töhfə verən ölkədir. Öz növbəsində NATO rəsmiləri münaqişə ocaqlarının söndürülməsində qlobal planda sülh və sabitliyin təminatında Azərbaycanın potensialını yüksək qiymətləndirirlər. Bu fikri görüş zamanı NATO-nun baş katibi Yens Stoltenberq bir daha səsləndirib və Azərbaycanın verdiyi töhfələr yüksək qiymətləndirib. Dövlətimizin başçısı da Azərbaycan ilə NATO arasında müxtəlif sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirib. Prezident İlham Əliyev Brüsselə səfəri çərçivəsində Ermənistanın işğalçılıq siyasəti, bu ölkənin BMT-nin Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı dörd qətnaməsini yerinə yetirmədiyini bildirib. Dövlətimizin başçısı bir daha vurğulayıb ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Bütövlükdə bu səfər onu göstərir ki, NATO Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verir"-deyə, S.Fətəliyeva vurğulayıb.

# Mərkəzi Seçki Komissiyasında Qazaxıstan MSK-nın nümayəndə heyəti ilə görüş olub



Qazaxıstan Respublikası Mərkəzi Seçki Komissiyasının nümayəndə heyəti noyabrın 24-də Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasında (MSK) sədr Məzahir Pənahovla görüşüb. Bu barədə AZƏRTAC-a MSK Katibliyinin media və ictimai əlaqələr şöbəsindən məlumat verilib.

MSK sədri Məzahir Pənahov əlaqələri ilbəil genişlənməkdə olan iki ölkənin ali seçki qurumları arasındakı əməkdaşlıqdan məmnunluğunu bildirib. Sədr, eyni zamanda, vurğulayıb ki, bu münasibətlər davamlı təcrübə mübadiləsinin aparılmasına və seçki praktikasının daha da təkmilləşdirilməsinə xidmət göstərir.

Qazaxıstan Mərkəzi Seçki Komissiyası sədrinin müavini Konstantin Petrov və nümayəndə heyəti Azərbaycanda informasiya-kommunikasiya texnologiyalarının da ən son nailiyyətlərindən istifadə edilərək seçki sisteminin hazırkı inkişaf səviyyəsinə çatdırılması istiqamətində görülmüş işlərlə maraqlanıb və bu uğurlu təcrübənin öyrənilməsinin onlar üçün mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib.

MSK sədri Məzahir Pənahov nümayəndə heyətinin suallarını cavablandıraraq, ölkəmizin seçki sistemi, seçki qanunvericiliyinin daha da inkişaf etdirilməsi üçün həyata keçirilən layihələr barədə ətraflı məlumat verib, son illər ölkəmizdə keçirilən seçkilərdə əldə olunan qabaqcıl təcrübəni qonaqların diqqətinə çatdırıb və bildirib ki, seçkilərin azad, ədalətli və şəffaf keçirilməsi üçün ölkədə hərtərəfli şərait mövcuddur. Görüş çərçivəsində nümayəndə heyəti MSK-nın İnformasiya Mərkəzində də olub. Mərkəzdə qonaqlara "Seçkilər" İnformasiya Sistemi, seçkilər zamanı proseslərin şəffaflığının təmin olunmasında sistemin təkmilləşdirilmiş şəbəkə variantından geniş istifadə imkanları və müvafiq proqram təminatları barədə ətraflı məlumat verilib və onları maraqlandıran suallar cavablandırılıb. Sonra Qazaxıstan MSK-nın nümayəndə heyəti Bakı şəhərində yerləşən bir neçə seçki dairəsinə baş çəkərək dairə seçki komissiyalarının iş şəraiti, eləcə də komissiya üzvlərinin, DSK katibliklərinin praktiki fəaliyyəti və müvafiq hüquqi baza ilə yaxından tanış olublar.

# Ermənistanlı zabitlər hərbi xidmətdən boyun qaçırırlar

Məzuniyyətdə olan ermənistanlı zabitlər də artıq xidmət yerinə qayıtmaq istəmir və müxtəlif bəhanələrlə xidmətdən yayınırlar. AZƏRTAC xəbər verir ki, hərbi hissələrdən birinin tabor komandirinin müavini Levon Babayan məzuniyyətdən qayıtmadığı üçün həbs edilib.

Ermənistanlı sosial şəbəkə istifadəçiləri belə bir məlumat da paylaşıblar ki, hərbi xidmətə yeni çağırılan 38 zabitdən 13 nəfəri xidmət etmək istəmədiyi üçün cəzalandırılıb və xidmət yerləri başqa hərbi hissəyə dəyişdirilib.

# YAP hər zaman xalqın yanındadır

***Məlum olduğu kimi noyabrın 14-də Heydər Əliyev Mərkəzində ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının 25 illik yubileyi münasibəti ilə tədbir keçirildi. Tədbirdə ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev çox mühüm tarixi çıxış etdi və ölkəmizin iqtisadi-hərbi uğurlarından danışdı, eləcə də bəzi xarici qüvvələrin müxalifət partiyalarını maliyyələşdirməsindən, "beşinci kolon"un yaradılmasına cəhdlərdən bəhs etdi. Söhbət etdiyimiz müsahiblərimiz tədbirin önəmini yüksək qiymətləndirərək, Prezident İlham Əliyevin çıxışının gələcək inkişaf üçün bir tezis və istiqamət olduğunu bildirdilər.***



### Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva: "YAP bundan sonra da Azərbaycanın inkişafına mühüm töhfələrini verəcək"

- Yeni Azərbaycan Partiyası 25 ildir ki, müstəqil Azərbaycanın inkişaf tarixinə bələdçilik edir. Sirr deyil ki, ölkəmizin inkişafında və tərəqqisində YAP-ın üzvlərinin fəaliyyəti və töhfəsi böyükdür. Partiyamızın Sədri, Prezident İlham Əliyev noyabrın 14-də keçirilmiş yubiley tədbirində YAP-ın üzvlərinin fəaliyyətini və töhfələrini bir daha yüksək qiymətləndirdi. Düşünürəm ki, bu, hər bir partiya üzvü üçün yüksək dəyərdir. Prezident İlham Əliyev proqram xarakterli çıxışında ölkəmizin inkişafı barədə, eyni zamanda, anti-Azərbaycan qüvvələrinin təxribatları haqqında çox mühüm məqamları ictimaiyyətin diqqətinə çatdırdı. Prezident İlham Əliyev müstəqilliyimizin ilk illərində Azərbaycanın düşdüyü böhranlı vəziyyətdən, o zamankı səriştəsiz hakimiyyətin ölkəmizi saldığı çətin durumdan, eyni zamanda, respublikamızın xilası naminə cəsarətli addımları ilə Ulu Öndər Heydər Əliyevə dəstək vermiş "91-lər"in fəaliyyətindən və azərbaycançılıq ideologiyasının cəmiyyətimizə təsirindən danışdı. Eyni zamanda ölkəmizin sürətli inkişafından və əldə olunan nailiyyətlərdən bəhs edən Prezident İlham Əliyev respublikamızın uğurlarına kölgə salmağa çalışanların təxribatlarını da diqqətə çatdırdı.

Ümumiyyətlə, bu, bir həqiqətdir ki, Yeni Azərbaycan Partiyası ölkəmizin ictimai-siyasi və sosial-iqtisadi həyatının aparıcı qüvvəsi kimi böyük rola malikdir. Baxmayaraq ki, dağıdıcı müxalifət, "beşinci kolon" xarici anti-Azərbaycan qüvvələrinin direktivlərilə ölkədəki sabitliyi pozmağa cəhd göstərir, amma xalq onlara dəstək vermir. Çünki YAP hər zaman xalqın yanındadır, xalqın partiyası kimi bütün işlərində milli maraqları əsas tutur. Odur ki, YAP bundan sonra da Azərbaycanın inkişafına mühüm töhfələrini verəcək.

### Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov: "Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır"

- Yeni Azərbaycan Partiyasının 25 illiyi ilə bağlı keçirilən yubiley tədbirində Cənab Prezident İlham Əliyev çox gözəl bir çıxış etdi. Çıxışında Cənab Prezident istər daxili, istər xarici və beynəlxalq aləmdəki məsələlərin hər birinə tək-tək toxundu. Yeni Azərbaycan Partiyasının yaranmasından ötən müddət ərzində əldə etdiyimiz nəticələr və gözləntilər nə idi, onlarla bağlı fikirlərini bildirdi. Yeni Azərbaycan Partiyası qələbələr partiyasıdır. İlk dəfə demokratik Azərbaycanda parlament seçkisi, məhz Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə keçirilib. İlk Konstitusiya-



mız Ulu Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanaraq, ümumxalq səsverməsi yolu ilə qəbul olunub. Noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyi qeyd olundu. Bu müddətləri analiz etdikdə, görünür ki, doğrudan da, bu illər ərzində nə qədər işlər görülmüşdür. Dağılmaqda olan bir ölkə bu günləri artıq regionda böyük bir aparıcı dövlətə çevrilib. Bu günlər Cənab Prezident İlham Əliyevin şəxsi nüfuzu dünyada kifayət qədər böyükdür. Bütün dövlət başçıları, beynəlxalq təşkilatlar və hər bir kəs Cənab Prezident İlham Əliyevi bir lider kimi, bir rəhbər kimi qəbul edir və Azərbaycanın maraqları ilə bağlı məsələlərdə Onunla hesablaşırlar.

Azərbaycanda, bildiyiniz kimi, kifayət qədər siyasi partiyalar fəaliyyət göstərir. Amma onların heç biri Cənab Prezident İlham Əliyevin ifadəsi ilə də desək, Yeni Azərbaycan Partiyasına alternativ ola bilməzlər. Yeni Azərbaycan Partiyası dövləti və xalqı ilə birlikdə hərəkət edir. Bizim gücümüz bundadır. Xaricdən və daxildən Azərbaycanı ələ ala bilməyən qüvvələr bunu bacara bilmirlər. Yəni kiçik işlər görürlər və müəyyən dəstələrə vəsaitlər ayırırlar. Amma xalqın 99 faizi Prezident İlham Əliyevi sevdiyi üçün onlar məkrli planlarını həyata keçirə bilmirlər. Xalqın "dəstəyini" almaq istəyən müxalifət yalnız qrantlar üçün məkrli işlər həyata keçirirlər. Azərbaycan xalqı siyasi cəhətdən yetkin və intellekt baxımından savadlı olduqları üçün onların əməllərinə əhəmiyyət vermir. Keçirdikləri mitinqlərə insanlar gəlmir. Yalnız bunların təşkil etdikləri mitinqlərə ancaq muzdlu insanlar yığışır və yaxud da fotoşopla və digər proqramlarla şəkilləri artırırlar ki, "beşinci kolon" kimi onları da istəyənlər var və buna uyğun da vəsait ayırırlar. Bir sözlə, onlar heç zaman uğur qazana bilməyəcəklər. Azərbaycan xalqı onlara rədd cavabı verib və bundan sonra da deyəcəkdir. Yeni Azərbaycan Partiyası 2018-ci ildə keçiriləcək prezident seçkilərində növbəti dəfə xalqın dəstəyini qazanacaq. Sonrakı dövrlərdə də biz qalib olacağıq. Bunun da yeganə səbəbi Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyevin apardığı siyasətinin mərkəzi nöqtəsi insanların sosial rifahının yüksəlməsinə və dövlətimizin daha da inkişaf etməsinə əsaslanmasıdır. Müstəqil dövlətik və müstəqil siyasət yeridirik. Heç bir kəs, heç bir xarici dövlət bizə təsir edə bilməz. Çünki xalq-iqtidar birliyi möhkəm əsaslara söykənir.

**GÜLYANƏ**

# Bakıda "Heç kim kənarda qalmasın: Qadınlara və qızlara qarşı zorakılığa son!" adlı konfrans keçirilib

Noyabrın 24-də Bakıda "Heç kim kənarda qalmasın: Qadınlara və qızlara qarşı zorakılığa son!" adlı konfrans keçirilib. AZƏRTAC xəbər verir ki, konfrans Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən BMT-nin İnkişaf Proqramı (UNDP), Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR), Əhali Fondu (UNFPA), Uşaq Fondu (UNICEF), BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Beynəlxalq Miqrasiya Təşkilatı (IOM), ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) ilə birgə təşkil edilib.

Tədbirdə çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova konfransın mövzusunun aktuallığından danışıb. O bildirib ki, hər il noyabrın 25-dən başlayaraq 16 günlük fəallıq kampaniyası çərçivəsində "Qadınlara və qızlara qarşı zorakılığa son!" layihəsi üzrə bir sıra tədbirlər həyata keçirilir. Bu tarix gündəlik həyatında zorakılığa məruz qalan çoxsaylı qadınlar adından bir çağırışdır. "Gender zorakılığına qarşı 16 günlük fəallıq kampaniyası" 25 noyabr Qadın Zorakılığına qarşı Beynəlxalq Mübarizə Günü tarixindən başlayaraq 10 dekabr İnsan Hüquqları Günü tarixinədək davam edən beynəlxalq kampaniyadır. Kampaniyanın məqsədi gender əsaslı zorakılığın insan hüquqları kimi təbliği üçün yerli, milli, regional və beynəlxalq səviyyədə maarifləndirmənin aparılmasıdır. Hicran Hüseynova qeyd edib ki, dünyanın ən ciddi problemlərindən biri olan gender əsaslı zorakılığın qarşısının alınmasında bütün ölkələr dövlət səviyyəsində iş aparır, mühüm qərarlar qəbul edirlər. Azərbaycan da bu prosesdən kənarda qalmayıb. Ölkəmizin qoşulduğu "Uşaq hüquqları və Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" ilk beynəlxalq Konvensiya da bunu deməyə əsas verir. "Prezident İlham Əliyevin rəhbərliyi və dəstəyi ilə qadın hüquqlarının qorunması, xüsusilə də məişət zorakılığının qarşısının alınması sahəsində güclü qanunvericilik bazası var. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə 2010-cu ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun qəbul olunub. Ümumiyyətlə, Azərbaycanda gender əsaslı zorakılığın qarşısının alınması istiqamətində çox mühüm işlər görülür", - deyə komitə sədri bildirib.

Hicran Hüseynova vurğulayıb ki, qadınların iqtisadi cəhətdən gücləndirilməsi onların zorakılığa məruz qalma səviyyəsinə də təsir edir. İqtisadi cəhətdən asılı olmayan qadın özünə inamlıdır, özünü daha rahat ifadə edə bilir. Xüsusilə, nisbətən daha aztəminatlı, sağlamlıq imkanları məhdud, qaçqın və məcburi köçkün qadınların kiçik və orta sahibkarlığa cəlb edilməsi, müxtəlif peşələrə sahib olması çox vacibdir. Bununla bağlı bir neçə bölgədə Qadın Resurs mərkəzləri yaradılıb. Bu sahədə müvafiq dövlət orqanları ilə yanaşı, qeyri-hökumət təşkilatları ilə birgə keçirilən layihələr də öz səmərəsini verir.



Mövzu ilə bağlı fikirlərini bölüşən BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi və BMT-nin Əhali Fondunun ölkə üzrə nümayəndəsi Qulam İshaqzai bildirib ki, hazırda bu cür kampaniyaların keçirilməsi bütün cəmiyyətlərdə vacib hesab olunur. Qadınların hüquqlarının qorunması və bu istiqamətdə görülən işlər təşviq olunmalıdır. Bu, həm də insanların iradəsini nümayiş etdirir. Qulam İshaqzai Azərbaycan hökumətinin ölkədə hər bir qadının zorakılığın bütün formalarından tam müdafiə olunmasının təmin edilməsində qətiyyətli olmasının yüksək qiymətləndirildiyini deyib. O, zorakılıqdan əziyyət çəkənlərin müdafiəsini və zərərçəkənlərin bütün mərhələlərdə dəstək almasını təmin etmək üçün mexanizmlərin yaradılmasını vacib sayıb.

ABŞ-ın ölkəmizdəki səfirliyinin missiya rəhbərinin müavini Uilyam Gil isə çıxışında bildirib ki, mövzu bu gün bütün dünya üçün aktualdır. Dünyada hər 3 qadından biri zorakılığa məruz qalır. Bu da cəmiyyətin inkişafına çox pis təsir edir. Bu problemlə mübarizədə müdafiə mexanizmləri ilə yanaşı, qanunvericilik sahəsində islahatlar və təşəbbüslər vacibdir. "Azərbaycanda bu sahədə böyük işlər görülüb və bu da təqdirəlayiq haldır", - deyən Uilyam Gil birgə səylər nəticəsində gender əsaslı zorakılığın qarşısının alınması üçün effektiv milli istiqamətləndirmə və müdafiə mexanizmlərinin yaradılacağına ümidvar olduğunu bildirib.

Milli Məclisin ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı zorakılıq faktına görə hər kəsin məsuliyyət daşıdığını və bütün dünyada bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi və imkanların genişləndirilməsi istiqamətində işlərin görüldüyünü vurğulayıb. O deyib ki, Azərbaycan qadın hüquqlarının qorunması üzrə bütün mühüm beynəlxalq sənədlərə qoşulub və ölkəmizdə mükəmməl milli qanunvericilik bazası yaradılıb. Milli Məclisin komitə sədri vurğulayıb ki, bütün hallarda zorakılığın hər bir növü qəbuledilməzdir.

Sonra Daxili İşlər Nazirliyinin şöbə rəisi Adıgözəl Adıgözəlov, Nizami Rayon İcra Hakimiyyəti başçısının müavini, "Gender əsaslı zorakılıq üzrə monitorinq qrupu"nun sədri Gülnaz İsrafilova və Konstitusiya Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev mövzu ilə bağlı çıxış ediblər. Onlar qadınların hüquqlarının qorunmasının müasir dövrümüzdə mühüm önəm kəsb etdiyini vurğulayıblar. Tədbirdə dövlət qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri, deputatlar, vətəndaş cəmiyyətinin, ictimaiyyətin təmsilçiləri iştirak ediblər.

# Avropadakı azərbaycanlılar Brüsseldə Avropa Parlamentinin binası qarşısında aksiya keçiriblər







Noyabrın 24-də Avropadakı azərbaycanlılar Belçika Krallığının paytaxtı Brüsseldə Avropa Parlamentinin binası qarşısında etiraz aksiyası keçiriblər. AZƏRTAC xəbər verir ki, Avropa Azərbaycanlıları Konqresinin təşkil etdiyi aksiyada 250 nəfərə yaxın soydaşımız iştirak edib.Aksiyanın məqsədi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həllini tapmaması ilə bağlı Avropada yaşayan azərbaycanlıların narahatlığını Avropa parlamentarilərinin diqqətinə çatdırmaq olub. Əllərində Azərbaycan bayraqları tutan aksiya iştirakçıları münaqişə nəticəsində azərbaycanlılara qarşı törədilmiş soyqırımı və terror aktları, bir milyondan çox soydaşımızın məcburi köçkünə çevrilməsi, Azərbaycan torpaqlarının 20 faizinin işğaldan azad edilməsi ilə bağlı şüarlar səsləndiriblər. İştirakçılar Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın regionda müstəqil siyasət yürütdüyünü vurğulayıblar.

İki saat davam edən aksiyanın sonunda Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsi, məcburi köçkünlərin öz torpaqlarına qayıtması üçün Avropa İttifaqının, ümumiyyətlə, bütün dünya birliyinin bu problemə ədalətli qiymət verməsini tələb edən bəyanat qəbul edilib.



Bəyanatda Ermənistanın təcavüzkar siyasətinin regionda sülhə və sabitliyə təhlükə yaratdığı, on minlərlə insanın qətlə yetirilməsinə səbəb olduğu vurğulanır. Avropada yaşayan Azərbaycan diaspor təşkilatlarının nümayəndələri Ermənistanın, habelə erməni diasporu və lobbisinin etnik düşmənçilik, millətlərarası ədavət, kin və nifrəti təlqin edən fəaliyyətindən dərin narahatlığını ifadə edir və dünya dövlətlərini bu cür təşəbbüslərə qarşı adekvat addımlar atmağa çağırır. Bəyanatda, həmçinin Ermənistanın Azərbaycana təcavüzü, Xocalı soyqırımı barədə faktlar diqqətə çatdırılır və dünya dövlətlərindən "Böyük Ermənistan" xülyasının nəticəsi kimi meydana çıxan, bölgədə təhlükəsizlik üçün ciddi təhdidə çevrilən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dəstək vermək, Ermənistanın terrorçu və təcavüzkar siyasətinə son qoymaq üçün səy göstərmək tələb olunur.

Qeyd edək ki, aksiyada Avropada fəaliyyət göstərən bir çox Azərbaycan diaspor təşkilatlarının nümayəndələri iştirak ediblər.

***Pərvanə Qarayeva***
***AZƏRTAC-ın xüsusi müxbiri***
***Brüssel***

## Pasportun itirilməsi məsuliyyət yaratmayacaq

Azərbaycanda pasportun itirilməsi və qəsdən korlanması "Pasport haqqında" və "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" qanunların tələblərini pozmağa görə məsuliyyət yaratmayacaq. SİA-nın məlumatına görə, bununla bağlı həmin qanunların müvafiq maddələrində pasportun və şəxsiyyət vəsiqəsinin itirilməsi, eləcə də qəsdən korlanması sözlərinin çıxarılması təklif olunur.

"Dövlət rüsumu haqqında" qanunda Azərbaycan vətəndaşlarına xaricə getmək hüququ verən ümumvətəndaş pasportlarının, eləcə də Azərbaycan vətəndaşının şəxsiyyət vəsiqəsinin itirilməsi və korlanması ilə əlaqədar yenidən verilməsinə görə rüsum dərəcələrinin müəyyən edilməsi nəzərdə tutulub. Müvafiq dəyişikliklərin əsas məqsədi dövlət xidmətinin səviyyəsinin yüksəldilməsi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsindən ibarətdir. Qanun layihələri Milli Məclisin dekabrın 1-də keçiriləcək iclasında müzakirəyə çıxarılacaq.

## İtkin düşən Azərbaycan qadınlarının sayı açıqlanıb

İtkin düşən Azərbaycan qadınlarının taleyi məni çox narahat edir və mən bütün beynəlxalq təşkilatları bu məsələyə xüsusi diqqət ayırmağa çağırıram. SİA-nın məlumatına görə, bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova qadınlara qarşı zorakılığın qarşısının alınması üçün keçirilən beynəlxalq kampaniyaya həsr olunan tədbirdə deyib. Onun sözlərinə görə, hazırda 265 qadın itkin düşüb, 98 qadın isə girovluqdadır. H.Hüseynova qeyd edib ki, nisbətən daha aztəminatlı, sağlamlıq imkanları məhdud, qaçqın və məcburi köçkün qadınların kiçik və orta sahibkarlığa cəlb edilməsi, müxtəlif peşələrə sahib olması çox vacibdir: "Gender əsaslı zorakılığa qarşı mübarizə aparmaq üçün daha effektiv mexanizmlərin yaradılmasına ehtiyac var".

H.Hüseynova bildirib ki, qadın və qızların səlahiyyətləndirilməsində, eləcə də gender əsaslı zorakılıqla mübarizə istiqamətində çox iş görülüb: "Lakin hələ də qarşımızda görülməli işlər var. Zorakılıq faktına görə hər birimiz məsuliyyət hiss etməliyik".

## Bu yerlərdə siqaret çəkmək qadağan edilir

Azərbaycanda tütün məmulatlarından (siqaret), qəlyandan və elektron siqaretdən istifadənin qadağan edildiyi yerlərin sırasına daha bir neçə məkan əlavə edilir. SİA-nın məlumatına görə, bu, yeni hazırlanmış "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanun layihəsinin üçüncü oxunuşunda 1-ci və 10-cu maddələrdə əks olunub.

Layihəyə əsasən, qeyd olunan məmulatlardan istifadəyə eyni zamanda xüsusi ayrılmış yerlər istisna olmaqla motel, hostel, habelə fiziki şəxslərin gecələməsi və ən azı 24 saat ərzində qala biləcəkləri digər yerləşdirmə obyektlərində də icazə verilməyəcək. Qanun layihəsi Milli Məclisin dekabrın 1-də keçiriləcək plenar iclasında müzakirəyə çıxarılacaq.

# Uğurlu büdcə layihəsi xalqımızın rifahına doğru atılmış mütərəqqi addımdır!

## *Yaradılmış güclü iqtisadi potensial belə deməyə əsas verir ki, Azərbaycan hələ uzun illər bu liderlik missiyasını davam etdirəcəkdir*

Müasir Azərbaycan iqtisadiyyatının inkişaf xüsusiyyətləri sırasında mühüm məqamlardan biri də son illərdə dövlətin düşünülmüş şəkildə iqtisadiyyatın idarə edilməsində rolunun əhəmiyyətli dərəcədə gücləndirilməsidir. Bu, özünü, ilk növbədə, dövlət büdcəsinin hazırlanması və qəbulu prosesində təzahür etdirir. Ümumiyyətlə, son illərdə ölkəmizdə dövlət büdcəsinin cəmiyyətin sosial və iqtisadi inkişafında rolu yüksəlmişdir. Dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi-sosial və digər strateji proqramlarının, vəzifə və problemlərinin həlli, dövlətin konkret funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitlərinin toplanması və istifadəsini təmin etməkdir. Bu isə, dövlət büdcəsinin tərtibi və icrasına məsuliyyətlə yanaşmağı, büdcə xərclərinin səmərəliliyinin artırılması üçün təkmil mexanizmlərin mövcud olmasını tələb edir ki, bunun da əsasında uğurlu dövlət quruculuğu faktoru dayanır. Bu baxımdan, 2018-ci ilin dövlət büdcəsi ölkənin iqtisadi kursuna, ortamüddətli maliyyə siyasətinə, iqtisadi və sosial inkişaf proqnozlarına və müvafiq dövlət proqramlarına uyğun hazırlanmışdır.

### Sahibkarlığın inkişafı və bu sahəyə göstərilən diqqət və qayğı da artırılacaq ki, bütün bunlar birbaşa dövlətimizin sosial siyasət tendensiyasına önəmli töhfələrini verəcəkdir

Ölkəmizin iqtisadi inkişafından, neft və qeyri-neft strategiyasının səmərəli nəticələrindən əldə edilən dividendlər insanların sosial problemlərinin həllinə və vətəndaşların həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilir. Bu istiqamətdə görülən müsbət işlər, deməyə əsas verir ki, Azərbaycan vətəndaşlarının sosial rifah halı qarşıdakı illərdə daha da yaxşılaşacaq. Habelə, sahibkarlığın inkişafı və bu sahəyə göstərilən diqqət və qayğı da artırılacaq ki, bütün bunlar birbaşa dövlətimizin sosial siyasət tendensiyasına önəmli töhfələrini verəcəkdir.

Gələn ilin dövlət büdcəsi Azərbaycanın iqtisadi inkişafını real ifadə edir. Belə ki, ötən illərin dövlət büdcələrində də biz bu reallığın şahidlərinə çebrilmişik. Ümumiyyətlə, dünyada və regionda baş verən hadisələr, eyni zamanda, ölkəmizin inkişaf gözləntilərinin nəzərə alınması da təqdirəlayiq hal kimi qiymətləndirilə bilər. Bu, Azərbaycan hökumətinin, bilavasitə ölkə Prezidenti Cənab İlham Əliyevin uğurlu büdcə siyasəti həyata keçirdiyini göstərir. Ona görə də, tam əminliklə qənaətə gələ bilərik ki, Azərbaycanın qarşıdakı illərdə daha sürətli inkişaf meyilləri əldə edəcəyinə dair proqnozlar özünü doğrultmaqdadır.

Xüsusilə, büdcə layihəsinin sosialyönümlü olması, sosial xərclərin gələn ilin büdcə layihəsində üstünlük təşkil etməsi Möhtərəm Prezidentimizin sosial sahənin prioritetliyinin təmin olunması ilə bağlı verdiyi tapşırıqlara əməl olunmasının təsdiqidir. Bu, həm də onu deməyə əsas verir ki, gələn ilin dövlət büdcəsi layihəsi tərtib olunarkən, əhalinin rifah halının və sosial müdafiəsinin daha da gücləndirilməsi əsas məqsəd kimi qarşıya qoyulub.



**NƏRİMAN ƏLİYEV,**
**millət vəkili**

### Bu gün bütün uğurlu ideoloji prinsiplər Prezident İlham Əliyev Cənabları tərəfindən reallaşdırılır

Gələn ilin büdcəsi ətrafında təhlillərimizi apararkən, onu da deyə beilərik ki, Azərbaycan dövlətinin siyasi kursu sosial dövlətə aid edilən bu klassik tələblərə tamamilə cavab verir. Belə ki, müstəqil Azərbaycanın dövlət quruculuğu yolunda əsas strateji hədəfləri müəyyən edərkən, Ümummilli Lider Heydər Əliyev bu tarixi kəlamı vurğulayıb: "Azərbaycan Respublikası öz dövlət quruculuğunda, sosial-iqtisadi problemlərin həllində tutduğu strateji yolla gedir. Bizim bu yolumuz Azərbaycanda demokratik-hüquqi sivilizasiyalı dövlət qurmaqdan, demokratik prinsipləri gündən-günə inkişaf etdirməkdən, dünyanın əldə etdiyi bütün demokratik nailiyyətləri Azərbaycanda yaymaqdan və xalqımızın sosial həyatını ən yüksək səviyyədə təmin etməkdən ibarətdir".

### Tam əminliklə deyə bilərik: Azərbaycan dövləti tərəfindən ardıcıl olaraq bu kateqoriyalı insanların sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində sistemli tədbirlər həyata keçirilir

Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev respublikamızın dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı, vətəndaşa diqqət və qayğı dayandığını bəyan edir və ölkəmizin 2025-ci ildə dünyanın inkişaf etmiş dövlətləri sırasına çıxacağını qarşıya məqsəd qoyur. Prezidentin 29 dekabr 2012-ci il tarixli Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası da bu məqsədlə işlənib-hazırlanmışdır. Azərbaycanın 2003-cü ildən başlayan sürətli, dinamik və harmonik inkişafı ölkəmizi bir sıra sosial-iqtisadi göstəricilərə görə MDB və Şərqi Avropa dövlətləri sırasında ön plana çıxarmışdır. Azərbaycanın milli iqtisadiyyatının, xüsusilə, qeyri-neft sektorunun dinamik inkişafının təmin edilməsi, xalqın sosial rifah halını artan xətt üzrə davamlı yüksəldilməsi məqsədilə Cənab Prezidentin 6.12. 2016-cı il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" təsdiq edilmişdir. Milli iqtisadiyyatımızın əsas 11 istiqaməti üzrə inkişaf xəttini müəyyən edən bu proqramda, birmənalı şəkildə nəzərdə tutulur ki, Azərbaycan 2025-ci ildən sonrakı dövrdə sosial rifah dövlətinə çevriləcəkdir.

Tam əminliklə deyə bilərik: Azərbaycan dövləti tərəfindən, ardıcıl olaraq bu kateqoriyalı insanların sosial müdafiəsinin daha da gücləndirilməsi istiqamətində sistemli tədbirlər həyata keçirilir. İnkişaf edən ölkəmizdə sosial siyasət həyatımızın bütün sahələrinə böyük təsirini göstərməkdədir. Həyata keçirilmiş və yaxın gələcəkdə yerinə yetiriləcək tədbirlər respublikada əhalinin sosial vəziyyətinin getdikcə daha da yaxşılaşması üçün əsaslı zəmin yaradır. Ümumiyyətlə, Azərbaycanın modern dövlət quruculuğunda sosial siyasətin önəmli istiqamətlərindən biri də əlillərin sosial müdafiəsidir. Bu istiqamətdə də zəruri addımların atılması göz önündədir. İnsana qayğı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Azərbaycan dövlətinin apardığı siyasətin mühüm prinsiplərindəndir. Azərbaycan iqtisadiyyatında ardıcıl müşahidə olunan inkişaf meyilləri, ayrı-ayrı sahələrdə əldə edilən müsbət nəticələr dövlətin sosialyönümlü siyasətinin daha da gücləndirilməsinə imkan verir. İqtisadiyyatda həyata keçirilən köklü dəyişikliklər ölkədə iqtisadi sabitliyi təmin etməklə bərabər, əhalinin sosial müdafiəsini gücləndirmək üçün möhkəm zəmin yaradıb.

Həqiqətən də, dövlətimizin sosial siyasəti nəticəsində əhalinin rifahı xeyli yüksəlib, yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə aşağı düşüb. Son illər yüz minlərlə yeni iş yeri açılıb ki, bu da işsizliyin aradan qaldırılmasında müstəsna rol oynayır. Azərbaycanda sosial dövlət quruculuğu uğurla həyata keçirilir. Xalqın güzəranının yaxşılaşdırılması üçün bütün imkanlardan yüksək səviyyədə istifadə edilir. Bütövlükdə, son illər ərzində çox ciddi sosial tədbirlər həyata keçirilib.

Onu da qeyd etmək lazımdır ki, hər il dövlət büdcəsinin təxminən 30 faizə qədəri sosial məsələlərə yönəldilir ki, bu da ölkəmiz üçün tamamilə məqbuldur. Bir sözlə, sosial sahədə ardıcıl şəkildə həyata keçirilən layihələr, onu göstərir ki, Azərbaycan hökuməti əhalinin maddi rifah halının yaxşılaşdırılması və onların bütün sosial qayğılarla əhatə olunmaları üçün güclü maliyyə imkanlarına və islahatları dərinləşdirmək iradəsinə malikdir.

### Hər bir vətəndaşın, onun ailə üzvlərinin həyatı və rifahı naminə layihələrə üstünlük verilir

Beləliklə, nəticəyə gələ bilərik ki, sosial dövlətin qurulmasının əsas şərtlərindən biri həmin dövlətdə sosial ədalətin səviyyəsi sayılır. Heç də təsadüfi deyildir ki, dövlətimizin əsas prinsiplərdən biri kimi sosial ədalət prinsipi götürülür, sosialyönümlü iqtisadiyyata malik olan dövlətlərdə dövlət vergi, sosial və məqsədli yardım mexanizmlərindən istifadə edərək, cəmiyyətin ən imkanlı təbəqələrinin imkansızlara yardımını və onların yaşayışı üçün minimum həyat şəraitinin təmin olunmasını təşkil edir. Belə cəmiyyətlərdə sosial sabitliyə nail olmaq, humanizm və ədalət prinsiplərini qorumaq dövlətin siyasətinin əsas istiqamətlərindəndir.

Onu da, qeyd etmək istərdim ki, sosial dövləti xarakterizə edən parametrlərdən biri də sosial müdafiə tədbirlərinin ardıcıllığı və təminatlılıq səviyyəsidir. Azərbaycan dövləti tərəfindən, davamlı olaraq, çoxsaylı sosial müdafiə tədbirləri həyata keçirilir, əmək haqqı, pensiya, müavinət (yaşa, işsizliyə, ailə başçısını itirməyə, əlilliyə, şəhid ailəsinə, veteranlara, xəstəliyə, hamiləliyə, doğuşa, çoxuşaqlılığa və s. görə), təqaüd (tələbələrə, Qarabağ müharibəsi və 20 Yanvar əlillərinə, şəhid ailələrinə, yaradıcı şəxslərə və s.) verilir, icbari təhsil və tibbi xidmət dövlət vəsaiti hesabına həyata keçirilir və sığorta xidmətləri genişləndirilir. Bu baxımdan, bütün cəmiyyətin rifah halının yüksəldilməsi vacib məsələlərdəndir. Çünki sosial dövlət dövlətçiliyin inkişafının yeni bir mərhələsi olub, maddi nemətlər bolluğu yaratmaqla, hər bir vətəndaşın yüksək rifah halını təmin edir. Ümumi daxili məhsulun həcminin artması, dövlət büdcəsinin çoxalması və investisiya qoyuluşu imkanlarının genişlənməsi cəmiyyətin bütün təbəqələrindən olan insanların sosial rifah halının yüksəlməsinə imkan yaradır. Bizlər də millət vəkili olaraq, bilavasitə bu amillər üzərində fəaliyyət istiqamətimizi qururuq. Ona görə ki, sosial dövlət vətəndaş - cəmiyyət - dövlət münasibətlərinin yeni bir forması, daha yüksək səviyyəsi olub, hər bir vətəndaşın, onun ailə üzvlərinin həyatı və rifahı naminə layihələrə üstünlük verir və insanların öz potensial imkanlarını reallaşdırmaq üçün hüquqi və iqtisadi müstəvidə qanuni şərait yaradır. Məhz qəbul edilən yeni büdcə layihəsi özündə bu amilləri ehtiva etməkdədir.

Yeri gəlmişkən, Prezident İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulamışdır: "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının və Azərbaycan dövlətinin maraqları dayanır. Hesab edirəm ki, bu iki əsas amil Azərbaycanda artıq çox güclü dayaqlara malikdir. Həm sosial, həm iqtisadi, həm də xarici siyasətlə bağlı atdığımız addımlar bizə böyük uğur gətirib və dünyada Azərbaycana çox böyük rəğbət var".

Həqiqətən də, Azərbaycan dövləti bir sosial dövlət olaraq öz vətəndaşlarının sosial, iqtisadi, hüquqi və mənəvi azadlıqlarını təmin edir, cəmiyyət üzvləri arasında sosial bərabərsizliyi minimuma endirməyə çalışır, sosial ədalətə, sosial sülhə və sosial əməkdaşlığa söykənən yeni münasibətlərin yaranmasına səy göstərir və buna nail olur. Böyük uğurla həyata keçirilən sosial-iqtisadi siyasət, son illərdə Azərbaycanda yaradılmış güclü iqtisadi potensial, belə deməyə əsas verir ki, Azərbaycan hələ uzun illər bu liderlik missiyasını davam etdirəcəkdir.

# Azərbaycanın və Pakistanın Daxili İşlər nazirlikləri arasında sıx münasibətlər mövcuddur



Noyabrın 24-də daxili işlər nazirinin birinci müavini, polis general-leytenantı Vilayət Eyvazov ölkəmizdə səfərdə olan Pakistan İslam Respublikasının Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri, general Zübair Mahmud Hayatın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir, general-polkovnik Ramil Usubovun səmimi salamlarını qonağa çatdıran V.Eyvazov dost və qardaş, strateji müttəfiq olan iki dövlət arasında əlaqələrin qədim tarixə və dərin köklərə malik olduğunu xatırladıb. Nazir müavini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ikitərəfli əməkdaşlığın genişlənməsinə hər zaman xüsusi önəm verdiyini, Pakistanın müstəqilliyimizi tanıyan ilk ölkə olduğunu, beynəlxalq aləmdə və regional təşkilatlar çərçivəsində Azərbaycanı birmənalı şəkildə dəstəklədiyini diqqətə çatdırıb.

Qonağa DİN-in funksional vəzifələri və fəaliyyət istiqamətləri, ölkəmizdəki mövcud kriminogen durum, həyata keçirilən islahatlar barədə məlumat verilib. Cinayətkarlıqla mübarizə və ictimai asayişin qorunması sahəsində ötən illər ərzində uğurlu nəticələrin əldə edildiyi, sabitliyin, əmin-amanlığın etibarlı şəkildə qorunduğu, belə təhlükəsiz şəraitdən vətəndaşlarımız kimi, ölkəmizdə fəaliyyət göstərən əcnəbilərin də yararlandığı bildirilib.

V.Eyvazov hər iki ölkənin Daxili İşlər nazirlikləri arasında sıx münasibətlərin mövcüdluğundan, imzalanmış beynəlxalq hüquqi sənədlər əsasında transmilli mütəşəkkil cinayətkarlığa, xüsusilə narkotiklərin qanunsuz dövriyyəsinə, qeyri-leqal miqrasiyaya və insan alverinə qarşı mübarizədə birgə səylərin göstərilməsindən, təcrübə və məlumat mübadiləsindən razılığını bildirib, qarşılıqlı səfərlərin əməkdaşlığın daha da dərinləşdirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib. Ölkəmizə ilk dəfə səfərə gəldiyini deyən general Zübair Mahmud Hayat dolğun məlumata görə təşəkkür edib. O, dövlətlərimiz və xalqlarımız arasında dostluq, qardaşlıq münasibətlərinin son illər bütün sahələrdə sürətlə inkişaf etməsindən, ölkəmizdə yaradılmış sabitlik və əmin-amanlıqdan, respublikamızın, onun paytaxtının dünyanın ən təhlükəsiz dövlətlərindən və şəhərlərindən biri olmasından, Azərbaycanda həyata keçirilən geniş quruculuq işlərindən məmnunluğunu bildirib.

Səmimi və dostluq şəraitində keçən görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər də müzakirə olunub.

# Naxçıvan Dövlət Universitetinin tələbələri muxtar respublikanın Ədliyyə Nazirliyində olublar

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamına əsasən Naxçıvan Dövlət Universitetinin hüquqşünaslıq, eləcə də dövlət və bələdiyyə idarəetməsi ixtisasları muxtar respublikanın Ədliyyə Nazirliyinin hamiliyinə verilib. Bu ixtisaslar üzrə I kursda təhsil alan tələbələr nazirliyin aparatında və tabe qurumlarında ikigünlük təcrübə keçiblər.***

AZƏRTAC xəbər verir ki, ilk olaraq tələbələr Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində dövlətimizin cəza-icra siyasətinin həyata keçirilməsi, məhkumların hüquq və vəzifələrinin təmin edilməsi üçün peşə kurslarının təşkili haqqında ətraflı məlumat alıblar. Burada onları maraqlandıran suallara aydınlıq gətirilib.

Hüquqşünaslıq ixtisası üzrə təhsil alan tələbələr Məhkəmə Ekspertizası Mərkəzində də olublar. Burada onlar mərkəzdə keçirilən ekspertiza növləri haqqında ətraflı məlumat alaraq, müxtəlif ekspertizaların aparıldığı laboratoriyalarda yaradılan şəraitlə, bu laboratoriyaların iş prinsipləri ilə maraqlanıblar. Tələbələr nazirliyin aparatında bir iş günü ərzində görülən işlər barədə də məlumat əldə ediblər.

İkigünlük təcrübə müddətində universitetin dövlət və bələdiyyə idarəetməsi ixtisası üzrə təhsil alan tələbələri nazirliyin Bələdiyyələrlə İş Mərkəzinə gələrək, burada iş prosesini izləyiblər.

Qeyd edək ki, təcrübə müddətində hər iki ixtisas üzrə təhsil alan tələbələr nazirliyin bütün şöbə və bölmələrində olub, günlük iş prosesində iştirak ediblər. Sonda Ədliyyə Nazirliyində tələbələrlə görüş keçirilib, onları maraqlandıran suallar cavablandırılıb.

# "Hərəyə bir ağac əkək"

*Daşkəsəndə bu deviz altında Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi ilə bağlı ağacəkmə kampaniyası keçirilir*



Dünən Daşkəsəndə RİH-in, YAP rayon təşkilatının və rayon Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin birgə təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illik yubileyi münasibətilə "Hərəyə bir ağac əkək" devizi altında ağacəkmə kampaniyası keçirilib.

"Bu gün havanın soyuq, qarlı olmasına və güclü qar yağmasına baxmayaraq, rayon əhalisi könüllü olaraq





idarə, müəssisə və təşkilatların kollektivləri ilə birgə rayonun müxtəlif ərazilərində, ümumilikdə, 320 ədəd müxtəlif növ ağac əkiblər"- deyə qeyd edilən məlumatda bildirilir ki, Daşkəsən RİH-nin başçısı Əhəd Abıyev, ağacəkmə kampaniyasında iştirak edən rayon prokuroru Elman Süleymanov, Daşkəsən Rayon Məhkəməsinin sədri Azad Əliyev, YAP rayon təşkilatının sədri Meydanəli Yolçuyev və rayonun digər məsul vəzifəli şəxsləri ilə birgə ayrı-ayrı ərazilərdə ağac əkiblər.

Əhəd Abıyev qeyd edib ki, Azərbaycanın tarixində və ictimai-siyasi həyatında əhəmiyyətli rol oynayan YAP-ın 25 illik yubileyi müxtəlif tədbirlərlə rayonumuzda qeyd olunur: "Yubiley tədbirləri çərçivəsində bu gün isə rayon ərazisində yaşıllaşdırma kampaniyasına başlamışıq. Yaşıllaşdırmanın, ağacəkmənin ekoloji tarazlığın pozulduğu müasir dünyamızda həyat üçün aktuallığını və böyük əhəmiyyətini nəzərə alaraq, 1200 ağac tinginin əkilməsi planlaşdırılan bu ağacəkmə kampaniyası rayonun lazımi ərazilərində həyata keçiriləcəkdir."

"Möhtərəm Prezidentimiz Cənab İlham Əliyevin müəllifi olduğu regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının rayonumuzda uğurla icra olunması sayəsində Daşkəsənin siması son illərdə çox ciddi şəkildə dəyişib və müasirləşib. Rayonumuzda ekologiyanın yaxşılaşdırılması istiqamətində də böyük işlər görülür"-deyə qeyd edən Ə.Abıyev, həmçinin, bildirib ki, YAP həmişə yaradıb, qurub, yaşadan partiya olub və gələcəkdə də xalqına xidmət göstərən partiya olacaqdır: "Ümummilli Liderimiz Heydər Əliyev həmişə quruculuq-abadlıq işlərinə və ekologiyanın qorunmasına və ağacların əkilməsinə xüsusi diqqət yetirib. Biz daşkəsənlilər də Ulu Öndər Heydər Əliyevin ideyalarına sədaqətlə xidmət göstərərək, həyata keçiririk. Hesab edirəm ki, "Hərəyə bir ağac əkək" kampaniyası çərçivəsində ağac əkməklə biz rayonumuzun ekologiyasının yaxşılaşmasına öz töhfəmizi vermiş olacağıq. Əkilən ağaclar böyüyəcək və gözəl yaşıllıq zolağına çevriləcəkdir. Bu ağaclardan insanlar bəhrələnəcəklər".

YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev də keçirilən ağacəkmə kampaniyasına və rayon ərazisində payız-qış mövsümünə hazırlıq işlərinin yüksək səviyyədə görülməsinə, xüsusilə də, Daşkəsən şəhərinin bütün küçələrinə asfalt örtüyünün salınmasına və şəhərinin su təchizatının yenidən qurulmasına görə əhalinin yüksək səviyyədə olan razılığını bildirərək, göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlığını çatdırıb.

**Rəfiqə HÜSEYNOVA**

# Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasından 200 il ötür

***Bu gün Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı mühüm layihələr həyata keçirir. Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq Fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli" elan olunması ölkənin multikultural dəyərlərə verdiyi önəmin daha bir nümunəsidir. Tolerantlıq və multikulturalizm məkanı olan Azərbaycan həm ölkədə, həm də bütün dünyada tolerantlıq və mədəniyyətlərarası dialoq yaratmağı davam etdirməyi qarşıya məqsəd qoyub. Ölkəmizdəki multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə, mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Müxtəlif dinləri və mədəniyyətləri təmsil edən bir çox xalqların dostluq və qardaşlıq şəraitində Azərbaycanda yanaşı yaşaması dövlət siyasətinin mühüm istiqamətlərindəndir.***




Azərbaycanda hər kəs milli mənsubiyyətindən və irqindən asılı olmayaraq azad nəfəs alır və sərbəst fəaliyyət göstərir. Azərbaycan ərazisində məscidlərin, pravoslav, katolik, gürcü-pravoslav kilsəsi, sinaqoq və digər ibadət yerləri fəaliyyətdədirsə, deməк, bu, artıq tolerant mühitin mövcudluğuna tam əsaslanır.





Azərbaycanda yüzillər boyu bərqərar olmuş tolerantlıq mühiti XIX əsrin əvvəllərində ölkəmizə köçürüldükləri ilk vaxtlardan alman mühacirlərinin yerli əhali ilə qısa müddətdə dərin ünsiyyət qurmaları üçün əlverişli zəmin yaratması da fikirlərimizə sübutdur. Almanların Azərbaycana ilk kütləvi köçü isə 1819-cu ilə təsadüf edir. Qısa zaman kəsiyində almanların yerli mühitə və əhaliyə asanlıqla inteqrasiyasının xalqımızın istiqanlılığı və digər mədəniyyətlərə hörməti sayəsində mümkün olub. Alman şərqşünasları Azərbaycan xalqının möhtəşəm söz sənəti yadigarlarının dünya elm aləminə tanıdılmasında mühüm xidmətlər göstərmiş, alman memarları isə Azərbaycanda şəhərsalma mədəniyyətinə dəyərli töhfələr vermişlər.

Bildiyimiz kimi, Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasından 200 il ötür. Azərbaycanın multikultural ənənələrə malik çoxəsrlik tolerantlıq məkanı kimi təbliğində böyük əhəmiyyətini nəzərə alaraq, Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200-cü ildönümünün layiqincə qarşılanmasını təmin etmək məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə il ərizində silsilə tədbirlər keçirilmişdir. Elə bu günlərdə, bu tədbirlərin davamı olaraq, UNESCO-nun Parisdəki baş qərargahında Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və ölkəmizin UNESCO yanında daimi nümayəndəliyinin təşkilatçılığı, Gürcüstan və Almaniya nümayəndələrinin iştirakı ilə almanların Cənubi Qafqaza gəlişinin 200 illiyi münasibətilə konsert proqramı keçirilib. Tədbirdə Azərbaycanda müxtəlif xalqların və dinlərin nümayəndələrinin mehriban ailə kimi yaşadıqları və tolerantlığın xalqımızın gündəlik həyat tərzinə çevrildiyi diqqətə çatdırılıb.

Azərbaycanda mövcud olmuş tarixi alman məskənləri və onların qorunub-saxlanması üçün görülən işlər və həmin ərazilərdəki abidələrin ölkəmizin turizm imkanlarına töhfəsi barədə məlumat verib. Həmçinin, Azərbaycanda alman məskənlərinin salınmasının 200 illiyi münasibətilə Prezident İlham Əliyev tərəfindən imzalanmış Sərəncama müvafiq olaraq, hazırlanmış tədbirlər planı haqqında da danışılıb.

## ALMANLARIN İNŞA ETDİKLƏRİ MƏŞHUR TİKİLİLƏRİN BƏZİLƏRİ PAYTAXTIMIZDA YERLƏŞİR

Mənbələrdən bizə bəllidir ki, 1819-cu ilin yayında Tiflisdən Azərbaycanın Yelizavetpol qəzasına köçən 194 alman ailəsi Şamxor (indiki Şəmkir) yaxınlığında iki koloniya salıblar. Həmin kəndlərdə geniş küçələr, aynabəndli, taxtapuşlu, zirzəmili və eyvanlı evlər tikilirdi. Tarixi mənbələrdə göstərilir ki, sonralar Gəncə və Qazax qəzalarında almanların yeni koloniyaları - Georqsfeld (indi Şəmkirin Çinarlı qəsəbəsidi), Alekseyevka, Qrünfeld (indi Ağstafanın Həsənsu kəndidi), Ayxenfeld (indi Şəmkirin İrmaşlı kəndidi), Traubenfeld (indi Tovuz şəhəri), Yelizavetinka ( indi Agstafa şəhəri) və Marksovka yarandı.

XIX əsrin sonu - XX əsrin əvvəlində Azərbaycanda yaşayan almanların əksəriyyəti protestantlığa etiqad edirdilər. Ölkəmizdə protestant kilsəsi 1857-ci ildə, məhz Helenendorfda (Xanlar ərazisində) tikilib. Sonralar Gədəbəy, Şamaxı, Bakı, Şəmkir ərazisində də alman lüteran kilsələri tikilib istifadəyə verilib. Almanların Azərbaycana yerləşdirilməsindən sonra, 50 il ərzində Gəncə ətrafında iki, Şəmkirdə üç, Tovuzda bir, Ağstafada üç alman yaşayış məntəqəsi salındı və alman ailələrinin sayı 3400-ü ötdü. Hazırda Şəmkir, Ağstafa, Xaçmaz, Göygöl və digər bölgələrdə çoxlu sayda alman abidələri Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qeydiyyata alınıb və dövlət tərəfindən qorunur.

Azərbaycanda almanların inşa etdikləri məşhur tikililərin bəziləri Bakıda yerləşir. Bakıda-28 May küçəsində yerləşən alman kilsəsi-kirxa onlardan biridir. Azərbaycanda yaşayan alman icması hər bazar günü bu kilsəyə gəlib, dualarını oxuyur, ibadət edir və söhbət aparırlar. O dövrdə Bakıda məskunlaşan alman və İsveç əsilli insanlar burada dini ibadət üçün bu kilsəni tikmək qərarına gəlirlər. Tarix boyu tolerantlığı ilə dünyaya nümunə olan xalqımız bu ideyanın həyata keçirilməsində onlara dəstək verir. Beləliklə, 1896-cı ilin martında Bakıda yevangelik-lüteran kilsəsinin təməli qoyulmuş və 1899-cu ildə istifadəyə verilmişdir. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2010-cu ildə bu binada əsaslı təmir və bərpa işləri aparılıb. Azərbaycan mütəxəssisləri əsaslı təmir və bərpa işlərini binanın özünəməxsus orijinal üslubunu və qədim tarixi memarlığını qorumaqla həyata keçiriblər.

Almanlar məskunlaşdıqları və qaynayıb-qarışdıqları bu yerləri İkinci Dünya müharibəsi dövründə tərk etmək məcburiyyətində qalsalar da, onların özlərindən sonra qoyub getdikləri tarixi-mədəni irsi Azərbaycan xalqı multikultural təbiətinə sadiqlik nümayiş etdirərək, lazımınca qoruyub saxlayıb. Azərbaycan xalqının tarixi və mədəniyyətində dərin iz qoymuş bu hadisənin UNESCO-nun "2016-2017-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri proqramı"na daxil edilməsi təqdirəlayiqdir.

Azərbaycan xalqı digər xalqlara qarşı həmişə tolerantlıq göstərib və bu gün də bu ənənə qorunub saxlanılır. Azərbaycan əsrlərdir fərqli din və mədəniyyətlərin qovuşuğunda yerləşir, ölkədə tarix boyu tolerantlıq və multikulturalizm mövcud olub, müxtəlif etnik qrupların və dinlərin nümayəndələri burada sülh şəraitində birgə yaşayıblar.

**ZÜMRÜD**

səs

www.sesqazeti.az
facebook Ses Media Holding
25 noyabr 2017-ci il

# Erməni mətbuatı Gürcüstana qarşı

*Sosial şəbəkələrdə rus-erməni.info-nun "Rusiya-Ermənistan strateji və ictimai təşəbbüsə yardım Mərkəzi" "Gürcüstanda ermənifobiya" məqaləsi yerləşdirilmişdir. Ermənilər öz təbiətlərinə uyğun olaraq, qonşu xalqlara və dövlətlərə böhtan kampaniyalarına sadiq qalaraq Gürcüstanın guya Türkiyə və Azərbaycanın əlində "girova çevrildiyi"ndən yazırlar. Guya Türkiyənin təsiri altında olan Gürcüstan özünün tranzit potensialından tam istifadə edə bilmir: "Alternativ tranzit istiqaməti- Gürcüstan-Ermənistan-İran tranziti inkişaf etdirilmir, çünki bu istiqamət blokada olunmuşdur". Erməniləri ən çox təşvişə salan işğal altında olan Dağlıq Qarabağda hərbi əməliyyatlar başlayacağı tədqirdə, Türkiyənin Gürcüstanı Ermənistanla olan iqtisadi əlaqələri kəsməyə sövq etmək ehtimalıdır.*



Guya "Tbilisidə Ermənistanın iqtisadi blokadasının ölkədə gərginliyə, o cümlədən, daxili siyasi böhrana gətirib çıxaracağını istəyən dairələr mövcuddur". Buna görə də, Gürcüstandakı ermənilərə "Cavaxk məsələsini" dirçəltmək və bu məsələdən Gürcüstana təzyiq vasitəsi kimi istifadə etmək tövsiyə olunur. Məqalədə 2016-cı il aprelin 23-də Cavaxetiya bölgəsində Axalsıx rayonunun bir kəndində erməni gənclərinin ənənəvi olaraq əllərində məşəl mövcud olmayan "erməni genosidini" xatırlamaq üçün "müqəddəs yerə"(Gürcüstan ərazisində) gedərkən, bir dəstə gürcü tərəfindən onların haqlı olaraq döyülmələri "milli təhqir" səviyyəsinə yüksəldilir. Buna görə gürcülərdən qisas alınması, silahlı erməni terror təşkilatının yaradılması və ümumiyyətlə, Cavaxetiya bölgəsinin Gürcüstandan ayrılması "məsləhət görülür".

Digər bir "təhlükəli məqam" kimi ermənilərin Gürcüstanda yığcam yaşadıqları şəhərlərdə, o cümlədən, Tbilisidə onların "demoqrafik böhran"la üzləşmələri təşvişlə yada salınır.Erməni mətbuatı yenə də məkrli yalanlardan istifadə edərək, Tbilisidə guya XIX əsrin ortalarına qədər əhalinin əksəriyyətinin ermənilərdən ibarət olmasından, guya onların "mokalaklar" adlandırılmasından, Tbilisinin erməni şəhəri olmasından, hətta Rusiya İmperiyası və demokratik Gürcüstanın mövcudluğu zamanı Tbilisinin merləri vəzifəsinə "görkəmli ermənilər"in seçilməsindən, Bakı nefti hesabına sərvət əldə etmiş Mantaşov, Aramyans və başqalarının guya"xeyriyyəçilik edərək" Tbilisidə bir çox yaşayış binaları, hətta həbsxana tikdirdiklərindən bəhs edirlər.

Azərbaycan Ordusunun "dördgünlük" aprel rəşadəti erməniləri təşvişə salır. Yenə məkrli erməni yalanı işə salınır: "Azərbaycan Ordusunun qondarma dinc "DQR"-ə hücum edərkən, Gürcüstan ermənilərə və Ermənistana qarşı müəyyən qeyri-dostluq münasibəti bəslədi. Halbuki Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin təxribatlarına cavab olaraq Dağlıq Qarabağ hüdudlarından kənarda ermənilərin işğal etdikləri öz torpaqlarında hərbi əməliyyatlar aparmışdı.Erməni mətbuatı Gürcüstanın şərq bölgəsində Samsxeti-Cavaxetiyada (guya erməni adı "Cavaxk" olan bölgədə) əhalinin yarısının ermənidilli olan əhalidən polisin silah-sursatı müsadirə etməsini də qərəzlə qarşılayır: guya bu, "ASALA"-nın Cavaxetiyada izləri olduğunu iddia edən Azərbaycan KİV-nin uydurmasıdır.

Mətbuat Ermənistan Respublikasının Gürcüstandakı səfiri Yuri Vardanyanı bölgəni "ermənisayaq qarışdıra bilmədiyinə"görə ittiham edir. "Dördgünlük" müharibə zamanı səfirin "cinayətkarcasına fəaliyyətsizliyi" onlarda erməni diplomatına qarşı etimadsızlıq yaradır. Guya Gürcüstandakı ermənifobiya və rusfobiya Türkiyə və Azərbaycanın siyasi texnologlarının və sponsorlarının köməyilə bəzi KİV-lərdə qızışdırılır.Hətta erməni mətbuatı ermənipərəst, guya "dördgünlük" müharibə zamanı Azərbaycana Abxaziya və Osetiyaya dair 2008-ci il rus ssenarisini xatırladan S.V.Lavrova qarşı təhqiredici materialların yayılmasına "təəssüfünü bildirirlər".

Erməni mətbuatını qıcıqlandıran bir məsələ də Ukrayna Silahlı Qüvvələri tərkibində separatçılara qarşı vuruşan "Gürcüstan Milli Legionu"nun komandiri Mamuka Mamulaşvilinin Azərbaycanın haqq işini müdafiə etməsi və Dağlıq Qarabağ separatçılarına qarşı döyüşlərdə komandiri olduğu legionun zabitlərinin Azərbaycan tərəfində vuruşmalarda iştirak etməsi haqqında verdiyi bəyanatdır. Ermənilər "haqq-ədaləti" erməni miflərinə və yalanlarına uyğunlaşdıraraq qəbul edirlər, ona görə onlara qarşı çıxanları "düşmən" hesab bedir, onları şantaj, təhdid edir, lazım gələndə, terrorla fiziki cəhətdən məhv edirlər. Erməni mətbuatı Gürcüstandan həm də ona görə narazıdır ki, bu ölkədəki sosial şəbəkələr, internet forumlarında Ermənistana və ermənilərə nifrət kampaniyası ara vermir. Gürcüstan KİV-in baş verən bütün qarışıqlıqlarda "dinc", "yazıq", "məsum" ermənilərin əlinin olmasını işıqlandırmasını rus-erməni.info bəzi ölkələrdə bütün bədbəxtliklərdə yəhudilərin günahlandırılması ilə müqayisə edir.

"Sobesednik Armenii", "Noev Kovçeq" qəzetləri, "Naşa sreda" portalı, Ermənistan Respublikasındakı Rusiya Federasiyasının sədrliyi, "Rusiya Erməniləri İttifaqı", Ermənistandakı Rusiya əməkdaşlıq nümayəndəliyi, "Rusiya və Erməni Apostol Pravoslav Kilsəsi və Yeni-Naxçevan Müqəddəs Yeparxiyalığı ilə məkrli əməkdaşlıq edən rus-erməni.info məşhur erməni yalanlarının təbliğatı ilə də məşğuldur: "Dəqiq (guya) 650 il əvvəl kral Böyük Kazimir Polşa ermənilərinə özünidarəetmə hüququ vermişdir." "Qədim Ermənistan (heç vaxt mövcud olmayan) yeni müstəqillik əldə etmişdir", "Guya ABŞ-ın Mərkəzi Kəşfiyyat İdarəsinin məruzəsinə görə Sovet atom bombası Ermənistanda yaradılmışdır". Qondarma "DQR"-in qondarma "prezidenti"nin verdiyi bəyanata görə, " Artsaxa qarşı hər hansı bir təcavüzü ermənilər-bütün dünya erməniləri vətən (hansı vətən?) müharibəsi hesab edirlər" və s.Yeri gəlmişkən, ermənilərin yalanları haqqında gürcülər arasında çoxlu lətifələr mövcuddur. Onlardan birini diqqətinizə çatdırmaq istəyirəm."Məlum olur ki, Ayda torpaq tapılır.Sən demə bu torpaq "Böyük Ermənistan"ın bir hissəsi imiş."

Beləliklə, yaşadıqları yerlərdə "ərazi iddiaları" irəli sürən, olmayan dövlətçiliklərini və tarixlərini saxtakarlıqla "qədimləşdirən", bütün qonşularına böhtan atan, güclü dövlətlər qarşısında boyun əyən ermənilər bəşəriyyətin sağalmaz xəstəliyi olan ermənilik xəstəliyinə düçar olublar. Bəşəriyyətin xilas yolu ermənilik xəstəliyini ya müalicə etmək, ya da "cərrahiyyə yolu" ilə ondan yaxa qurtarmaqdır.

**Vahid Ömərov,**
*AMEA-nın Qafqazşünaslıq İnstitutunun "Gürcüstanşünaslıq" şöbəsinin müdiri, fəlsəfə doktoru*

# İtaliyanın populyar turizm portalı Bakının görməli yerləri haqqında yazır




İtaliyanın populyar "Lagenziaviaggi.it" turizm portalında jurnalist-səyahətçi Massimo Tallarigonun müəllifi olduğu "Azərbaycan - Odlar diyarı. Burada hər şey inkişaf edir" adlı məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Bakı şəhərinin görməli yerləri, zəngin tarixi abidələri, həmçinin müasir memarlıq nümunələrindən bəhs edilir. Yazıda dünyada "Odlar diyarı" kimi tanınan Azərbaycanda sürətli inkişafın baş verdiyi bildirilir, bu inkişafın xüsusilə paytaxt Bakı şəhərində daha aydın nəzərə çarpdığı qeyd olunur.

Müəllif "Bakı" sözünün mənası haqqında oxuculara ətraflı məlumat verir. O, möhtəşəm memarlıq abidələri ilə zəngin olan Bakının xüsusilə gecələr işıqlara qərq olduğunu və bununla da heyrətamiz mənzərənin yarandığını diqqətə çatdırır, İçərişəhər, Qız qalası, Şirvanşahlar sarayı, Atəşgah məbədi haqqında məlumat verir. Həmçinin İçərişəhərdə yerləşən Miniatür Kitab Muzeyindən bəhs edilir və burada minlərlə miniatür kitabın, hətta dünyanın ən kiçik Bibliya kitabının olduğu bildirilir. Müəllif Bakının müasir tikililərinə də diqqət çəkir, dünya şöhrətli memar Zaha Hadidin müəllifi olduğu Heydər Əliyev Mərkəzi haqqında məlumat verir, onu dünya memarlığının ən möhtəşəm nümunələrindən biri adlandırır. Qobustan Dövlət Tarixi-Bədii Qoruğundan da bəhs edilən məqalədə qoruğun UNESCO-nun Dünya İrs Siyahısına daxil edildiyi bildirilir. Qobustan təsvirlərinin çox qədim tarixi dövrə gedib çıxdığını vurğulayan müəllif burada 40 min il yaşı olan altı mindən çox qaya daşlarına rast gəlindiyini diqqətə çatdırır.

# SOCAR istiqrazlarına tələbat kəskin artıb

SOCAR istiqrazlarına tələbat kəskin artıb. İstiqrazların marketmeykeri olan "PSG Kapital" investisiya şirkətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycanın qiymətli kağızlar bazarında ciddi qiymət artımı qeydə alınıb. Ölkədə ən çox alınıb-satılan qiymətli kağızlar olan SOCAR istiqrazlarının qiyməti kəskin yüksələrək 1010 dolları keçib. Hazırda birjada SOCAR istiqrazlarının alış qiyməti 1004,80 dollar, satış qiyməti isə 1010 dollardır. Bu göstərici həftənin əvvəlindəki qiymətlərdən xeyli yüksəkdir. Belə ki, noyabrın 20-də SOCAR istiqrazlarının alış qiyməti 1003,2 dollar, satış qiyməti isə 1007,6 dollar idi. Xatırladaq ki, hazırda SOCAR istiqrazlarını yalnız təkrar bazardan, yeni birja vasitəsilə istiqrazın hazırkı sahiblərindən almaq mümkündür. İstiqraz sahibləri isə onları 1010 dollardan aşağı satmaq istəmirlər.




İstiqrazların qiyməti adətən ödəniş tarixinə az müddət qalanda bu həddə çatırdı. İndi isə faiz ödənişinə hələ 2 aya yaxın müddət qaldığı halda, qiymətlər yüksəlməkdədir. "Bahalaşmaya səbəb istiqrazlara tələbatın kəskin artmasıdır, bazardakı təklif bu tələbi qarşılaya bilmir. Hazırda həm fiziki, həm də hüquqi şəxslər tərəfindən istiqrazların alışı üzrə çoxsaylı təkliflər var. Amma təkrar bazardakı təkliflər bu tələbi qarşılaya bilmir", - deyə "PSG Kapital"dan bildirilib.

# Azərbaycan və Türkiyə Hərbi Hava Qüvvələrinin nümayəndələri arasında qərargah danışıqları keçirilib




Azərbaycan Respublikasının Hərbi Hava Qüvvələrinin (HHQ) və Türkiyə Respublikasının Hərbi Hava Qüvvələrinin nümayəndələri arasında Bakıda qərargah danışıqları keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, mütəxəssislərin iştirakı ilə keçirilən görüşdə hərbi, hərbi təhsil sahələrində əməkdaşlığın mövcud vəziyyəti, inkişaf perspektivləri, birgə planların dəqiqləşdirilməsi və digər istiqamətlərdə fikir mübadiləsi aparılıb. Qonaqlar, həmçinin HHQ-nin hərbi hissələrini ziyarət ediblər.

# Mübariz Əhmədoğlu: "Mehri SES-in tikintisindən imtina İranın Ermənistana münasibətinin pisləşdiyinin rəsmi sübutudur"

*"İran və Ermənistan Mehri SES-in tikintisi üçün yeni investorlar axtarırlar. Bu barədə Ermənistanın enerji infrastrukturları və təbii ehtiyatlar nazirinin müavini Ayk Arutyunyan bildirdi. Bu, İranın Mehri SES-in tikintisini maliyyələşdirməkdən imtina etməsinin rəsmi sübutudur". Sözügedən fikirlərlə Siyasi İnnovasiya və Texnologiya Mərkəzinin sədri Mübariz Əhmədoğlu çıxış edib. Onun fikrincə, 2012-ci ilin noyabr ayında təməli qoyulan bu stansiya 2016-cı ilin əvvəlində istifadəyə verilməli idi, hətta 323 milyon dollar olan bütün xərci İran tərəfi çəkəcəkdi.*



SİTAT: "İranın eks-prezidenti Mahmud Əhmədinejadın prezidentliyi dövründə Mehri SES-in tikintisi İranın Ermənistana hədiyyələri sırasında idi. O zaman Ermənistan bankları ABŞ-ın sanksiyalarına görə İrandan bu pulu qəbul edə bilmədilər. Rəsmi Yerevan SES tikintisi üçün nəzərdə tutulan pulu nağd dollarla kisələrdə Ermənistana gətirməyi təklif etdilər. M.Əhmədinecad bunu qəbul etsə də, İranın bank strukturu bu əməliyyatı reallaşdıra bilmədi. İndi İran maliyyə vəziyyətinə görə bu pulu ödəyə bilmir".

SİTM sədri səbəbin yalnız maliyyə tərəfində deyil, digər məsələdə də olduğunu xatırladaraq, deyib ki, son zamanlar Ermənistanın bölgədə tutduğu mövqe, bilavasitə İran tərəfindən təhlükə olaraq görülməkdədir. "Amma səbəb təkcə maliyyə deyil. Ermənistanın çoxbaşlı geosiyasi oyunları İran tərəfindən təhlükə kimi qəbul edilir"-deyə qeyd edən Mübariz Əhmədoğlu, məhz bu faktorun da mövcudluğunu bildirib və vaxtilə İranla Ermənistan arasında baş tutmayan iqtisadi sövdələşmələr sırasında başqa layihələrin də olduğunu xatırladıb. SİTAT: "Ermənistan Nəqliyyat Nazirliyinin nümayəndəsi "Şimal-Cənub" avtomobil yolunun tikintisində xeyli geriləmənin olduğunu da bildirdi. Bu layihənin də bünövrəsi Əhmədinejadın dövründə qoyulmuşdu. Ermənistan İran adı ilə beynəlxalq maliyyə qurumlarını aldadaraq, "Şimal-Cənub" avtomobil yolunun tikintisinə 500 milyon dollar kredit cəlb edə bildi. Tikintisi 4 mərhələyə bölünmüş bu yolun, hətta I mərhələsi başa çatdırılmayıb. Pul isə xərclənib qurtarıb".

Ermənistanın hal-hazırda da müxtəlif layihələr çərçivəsində investor axtarışında olduğunu deyən SİTM sədri xatırladıb ki, ideyaların hər biri işğalçı ölkənin prezidenti tərəfindən irəli sürülsə də, həmin ideyalar, məhz onun özünün yaratdığı rejim və korrupsiyalaşmış siyasəti tərəfindən baş tutmamış qalıb: "İran-Ermənistan dəmir yolunun tikintisinə investor axtarışı ilə bağlı danışıqlar davam edir. Bunu da Ermənistan Nəqliyyat Nazirliyinin rəsmiləri bildirdilər. Bütün bu layihələr S.Sarkisyanın prezidentliyi dövründə hazırlandı. Ermənistanın bu layihələr üzrə dövlət siyasətinin iflası da S.Sarkisyanın prezidentliyi dövrünə düşdü".

Mübariz Əhmədoğlu bununla belə qənaətə gəlib ki, əgər bu gün hər hansı Avropa, ya da dünya siyasiləri Sarkisyana qucaq açmağa hazırlaşırlarsa, bu zaman onların özlərinin də korrupsiyalaşmış şəxslər olduqlarını düşünmək olar: "Avropa və dünyanın digər regionlarının siyasətçilərinin belə prezidentə - S.Sarkisyana inanmasının səbəbi yalnız özlərinin korrupsiya marağındadır".

***Rövşən RƏSULOV***

# Səudiyyə Ərəbistanı: korrupsiyada ittiham olunanlardan 100 milyard dollar alınıb



Səudiyyə Ərəbistanında korrupsiyada ittiham olunan şəxslərin əksəriyyəti varidatlarının bir hissəsini dövlətə verməyi nəzərdə tutan məhkəməyə qədər nizamlama prosesi ilə razılaşıb. Razılaşmaya əsasən onlardan 100 milyard dollara yaxın vəsait toplanıb. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bu barədə şahzadə Məhəmməd bin Salman Al Səud ABŞ-ın "The New York Times" qəzetinin jurnalistlərinə müsahibəsində bildirib.

"Ölkəmiz 1980-ci illərdən bəri korrupsiyadan çox əziyyət çəkib. Ekspertlərin hesablamalarına görə, hər il dövlət xərclərinin təxminən 10 faizi korrupsiya nəticəsində mənimsənilib", - deyə şahzadə bildirib. O qeyd edib ki, kral Salman bin Əbdüləziz Al Səud hələ iki il bundan əvvəl "ən yuxarılarda" korrupsiya barədə informasiya toplamağı tapşırıb. Nəticədə təxminən 200 nəfərin adı olan siyahı tərtib edilib. Bununla yanaşı, şahzadənin sözlərinə görə, şübhəli bilinənlərin təxminən 1 faizi günahsız olduqlarını sübut edib və onların üzərindən ittihamlar götürülüb, 4 faizi isə ittihamla razılaşmayıb və məhkəməyə hazır olduqlarını bildirib.

# Qış fəslinin Azərbaycana gəlmə vaxtı açıqlanıb



Bu il qış fəslinin Azərbaycana gəlmə vaxtı məlum olub. Bu barədə AZƏRTAC-a Azərbaycan Milli Elmlər Akademiyasının N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası direktorunun elmi işlər üzrə müavini, fizika üzrə fəlsəfə doktoru Xıdır Mikayılov bildirib. O qeyd edib ki, qış fəslinin Azərbaycana gəlişi dekabrın 21-i Bakı vaxtı ilə saat 20:27-də baş verəcək. Həmin tarixdə payız fəsli başa çatacaq, ölkə ərazisinə qış fəsli daxil olacaq.

# Misir: məsciddə partlayış nəticəsində həlak olanlar və yaralananlar var



Sinay yarımadasının şimalında, Əl-Əriş şəhərində yerləşən Əl-Rauda məscidində cümə namazı zamanı güclü partlayış baş verib. AZƏRTACxəbər verir ki, "SkyNewsArabia" telekanalının məlumatına görə, partlayış nəticəsində 184 adam həlak olub, onlarca adam yaralanıb. Hadisə yerinə təhlükəsizlik qüvvələri və təcili yardım maşınları gəlib.

# Beynəlxalq Əlillər Günü münasibətilə konsert - "Biz bir ailəyik"

Dekabrın 1-də Heydər Əliyev Sarayında "Biz bir ailəyik" adlı konsert proqramı təqdim olunacaq. Sarayın mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, 3 dekabr - Beynəlxalq Əlillər Günü münasibətilə reallaşacaq konsert fiziki qüsurlu insanların istedadını nümayiş etdirmək məqsədi daşıyır. Konsertdə daun sindromlu uşaqların "Günəş uşaqları" adlı rəqs qrupu, "İstedadlı əlillər" cəmiyyətinin və 1 nömrəli sağlamlıq imkanları məhdud gənclərin peşə reabilitasiya mərkəzinin üzvləri çıxış edəcək. Konsertdə fiziki qüsurlu ifaçıları Milli Konservatoriyanın tələbələrindən ibarət "Könül dünyamız" ansamblı müşayiət edəcək. Konsertə giriş ödənişsizdir.




# Genişləndirilmiş "Nar" LTE şəbəkəsi artıq bölgələrdə

*Abunəçilərin rahat, kəsintisiz rabitə və internet xidmətlərindən yararlanması məqsədilə "Nar" yeni baza stansiyalarının ölkə ərazisində quraşdırılması prosesini davam etdirir. Aparılmış genişmiqyaslı təkmilləşdirmə işləri nəticəsində mobil operator Bakı və Abşeron yarımadası ilə yanaşı, artıq respublikanın digər bölgələrində də 4G (LTE) xidmətini abunəçilərinin istifadəsinə təqdim etdi.*

Belə ki, bölgələrdə ilk olaraq Gəncə şəhərində yaşayan abunəçilər mobil internet sürətinin əhəmiyyətli dərəcədə artmasını təmin edən LTE xidmətindən yararlanmaq fürsəti əldə ediblər. Beləliklə, Gəncə şəhərindəki "Nar" abunəçiləri də mobil operatorun LTE texnologiyası ilə təmin etdiyi 225 Mbit/s çatan sürət sayəsində internet resurslarından daha səmərəli şəkildə istifadə etmək imkanı qazandılar.

Qeyd edək ki, abunəçilərin artmaqda olan internetdən istifadə tələblərinin qarşılanması üçün Azərbaycanın müxtəlif bölgələrində yeni 3G və LTE baza stansiyaları quraşdırmaqla şəbəkənin təkmilləşdirilməsi işləri davam etdirilir. "Nar" Bakı şəhəri, Abşeron yarımadası və Gəncə şəhərində xidmət göstərən 4G baza stansiyaları ilə öz istifadəçilərinə ölkədəki ən böyük mobil rabitə şəbəkələrindən birini təqdim edir. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6000-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.




Mobil operatorun şəbəkəsi və baza stansiyaları haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən öyrənmək olar.

"Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib.

TƏRS BAXIŞ

# İsa Qəmbər niyə əl-ayağa düşüb?

*Müsavatın sabiq başqanı indi də "boykot" taktikasının səmərəsizliyini etiraf etdi*



Dağıdıcı müxalifətin digər qanadlarında olduğu kimi, Müsavatın keçmiş başqanı İsa Qəmbərin sədri olduğu "Milli-Strateji Düşüncə Mərkəzi" də 2018-ci il seçkilərində məğlubiyyətə uğramaq ehtimallarının 100%-ə yaxın olduğunu dərk edərək, indidən "tədbirlər" görməyə başlayıb. Daha dəqiqi, İ.Qəmbər ənənəvi müxalifətin "boykot" taktikası ətrafında fikir bildirərək, seçkilərə qatılmağın vacibliyindən danışıb. Bu amil isə, bəri başdan belə deməyə zəmin yaradır ki, əslində, dağıdıcı müxalifət "liderlərinin" bu və ya digər şəkildə - blok və birliklərdə, ya da ayrı-ayrılıqda seçkilərdə iştirakdan kənarda qalması onların siyasi ölümlərini sürətləndirir. Məhz bu baxımdan, İ.Qəmbər ciddi təlaş keçirdiyini təşkil etdiyi toplantı vasitəsi ilə dolayı yollarla etiraf edib.

**Görünür, 2003-cü il 15-16 oktyabr iğtişaşlarından sonra iki ilə yaxın müddətdə ortalıqda görünməyən İsa Qəmbər hansı vəziyyətə düşdüyünü, hətta kəskin depressiyaya uğrayaraq, psixoloji pozuntu keçirdiyini də unudub**

Daha bir maraqlı məqam isə, həmin toplantıya "REAL" hərəkatı ilə Vətəndaş və İnkişaf Partiyasının rəhbərliyinin qatılmasıdır. Belə ki, bu partiyaların fəaliyyətsiz vəziyyətdə qalmaları sonda, onların Müsavatla müvəqqəti olsa belə, bir araya gəlmək maraqlarıdır. Bütün bunlar öz yerində, lakin...

Digər maraqdoğurucu məqam İ.Qəmbərin çıxışı ilə bağlıdır. Misal üçün, o, xatırladıb ki, ənənəvi müxalifət iki dəfə boykot taktikası həyata keçirsə də, onların hər biri uğursuzluqla nəticələnib. Yəni xalq onları dəstəkləməyib. Ancaq buna rəğmən, 2003-cü ildəki seçkilərə qatıldığını deyən "MSDM" sədri nədənsə, həmin ərəfələrdə hansı xarici dairələrin sifarişlərini həyata keçirərək, ölkədə sabitliyi pozmağa yönəlmiş xəyanətkar addımlarını xatırlatmayıb. Görünür, 2003-cü il 15-16 oktyabr iğtişaşlarından sonra iki ilə yaxın müddətdə ortalıqda görünməyən İ.Qəmbər hansı vəziyyətə düşdüyünü, hətta kəskin depressiyaya uğrayaraq, psixoloji pozuntu keçirdiyini də unudub. Həmin vaxtlar onun bu vəziyyətindən maksimum istifadə edən AXCP düşərgədaxili vəziyyətdə önə çıxaraq, demək olar ki, Müsavat başqanını əzməyə nail olmuşdu. Sadəcə, o ərəfələrdə ölkədə fəaliyyət göstərən bəzi xarici səfirliklər İ.Qəmbəri düşdüyü ağır və böhranlı vəziyyətdən çıxarmışdılar. Amma bunun da nəticəsi olmadı. İndi İ.Qəmbər yenidən ortalığa düşərək, "MSDM" adlı qondarma qurumu ilə "siyasətdə" olduğunu nümayiş etdirməyə başlayıb. Çünki Müsavat başqanı postu əlində deyil. Amma belə bir sual yaranır ki, İ.Qəmbər Müsavat başqanı olaraq öz postunu Arif Hacılıya təhvil veribsə, nəyə görə seçkilərə onu namizəd kimi göndərmir, özünü ortalığa atır? Hərgah o öz yerini Hacılıya saxta yollarla bağışlayıbsa, kənara çəkilməli və istefa vermiş partiya sədri kimi, hadisələri kənardan izləməlidir. Fəqət siyasi həyasızlıq sindromu onu bu gün də bürüməkdədir. Necə deyərlər, 2018-ci il onun ağzını yenidən sulandırıb.

**İsa Qəmbər yenidən radikal düşərgənin digər qanadında yer alan AXCP sədri Əli Kərimliyə meydan oxumağa başlayıb**

Beləliklə, hər zaman olduğu kimi, illərdir dilində bitən "demokratik seçki mühiti" kəlməsi ətrafında oyunbazlıqlar edən İ.Qəmbər yenidən ortalığa düşüb və radikal düşərgənin digər qanadında yer alan AXCP sədri Ə.Kərimliyə meydan oxumağa başlayıb. Əgər nəzərə alsaq ki, sözügedən topalntıya Ə.Kərimliyə düşmən hesab edilən "REAL" hərəkatının həbsdə olan sədri İlqar Məmmədov, VİP sədri Əli Əliyev də qatılıb, bu zaman 2018-ci il seçkiləri ərəfəsində kəskin qarşıdurmaların yaşanacağını bəri başdan demək olar. O da maraqlıdır ki, İ.Qəmbərin dediklərini elə Ə.Kərilmi də illərdir ki, təkrar edir və onlar "seçki məcəlləsi" məsələsində irəli sürülən "ideyaların", məhz özləri tərəfindən irəli sürüldüyünü iddia edirlər. Qarşıdurmaya səbəb olan daha bir faktorun da məhz bu olması şübhəsizdir.

Nəticə olaraq, fakt ortadadır və 2018-ci ildə yenidən alaq otu kimi baş qaldıran radikallar indidən öz hallarına qalmağa başlayıblar. Çünki xalqın dəstəyindən məhrum olanların yalnız bir yolları qalır - bir-biri ilə savaşıb, müxalifətdə daha bir neçə il "ömür sürmək"...

**Rövşən RƏSULOV**

# Müsavat- AXCP problemlər burulğanında

*Arif Hacılı Əli Kərimlidən qisas almağa hazırlaşır*

Növbəti prezident seçkiləri ərəfəsində dağıdıcı müxalifət düşərgəsində bir çox gizli problemlər açılmağa və bununla da yeni gərginlik yaranmağa başlayıb. Əslində, bu, gözləniləndir. Xüsusilə də dağıdıcı müxalifət düşərgəsində iki "ana müxalifət" iddiası ilə çıxış edən Müsavat və AXCP arasındakı gərginliklər başa çatmamış, növbəti qarşıdurmalara səbəb olacaq faktor yaranır. 2018-ci ildə keçiriləcək prezident seçkilərinə "hazırlıqla" bağlı ortaya qoyulan iddialar partiyalararası gərginliyin bundan sonra daha da kritik hal alacağını təsdiqləyir.



**Müsavatın AXCP-yə qarşı "səlib yürüşü"**

Problemlər burulğanında çabalayan Müsavat və AXCP funksionerləri, görünür, sakit dayana bilmirlər. Necə deyərlər, qaşınmayan yerdən qan çıxarırlar. Elə qarşıdakı prezident seçkiləri ərəfəsi Müsavat başqanı A.Hacılı AXCP sədri Ə.Kərimlinin onlara qarşı "səlib yürüşü" hazırladığını deyib: "Liderinə qarşı xəyanət edən Ə.Kərimlinin bir iddiası var: hər şeyə mənsub olmaq. Buna isə heç vaxt nail olmayacaq. Onu sındırmaq borc olsun".

A.Hacılı Ə.Kərimlinin vaxtilə lideri, mərhum Əbülfəz Elçibəyə xəyanət etdiyini deyərək, bildirib ki, o, siyasətə satqınçılıq etməklə gəlib: "Bu yerdə Ə.Kərimlinin keçmiş müavini Razi Nurullayevin keçmiş lideri haqda dediklərini xatırlamaq istərdim: "Gənclərin mənəviyyatını pozanlar, onlara "suka"lıq dərsi keçənlər Ə.Kərimli məktəbini keçirlər. Bu məktəbi keçən gənclər ölkə üçün itirilmiş və mənəviyyatı korlanmış gənclərdir".

Ə.Kərimlinin araqarışdırmasından danışarkən, AXCP və Müsavat arasında son qarşıdurma illərinə nəzər salaq: 2003-cü ilin prezident seçkilərində qısa müttəfiqlik edən hər iki siyasi təşkilat arasında növbəti qalmaqal yaşandı. "Müxalifətin Koordinasiya Mərkəzi" adlı qurumda İ.Qəmbəri müdafiə edəcəyini bəyan edən Ə.Kərimli son anda AMİP sədri Etibar Məmmədovu dəstəkləmişdi.

2005-ci ilin parlament seçkilərində boykot taktikasını tutan Ə.Kərimli bununla Müsavata qarşı "öldürücü" zərbə vurmuş oldu.

Beləliklə də, bir daha sübut olundu ki, ümumiyyətlə, AXCP-Müsavat partiyalarının hər hansı adda olan siyasi qurumda bir araya, yekdil fikrə gəlməsi mümkünsüzdür.

**Fiasko tendensiyasının reallaşması**

Göründüyü kimi, yarandığı gündən yalnız aşırı dağıdıcı düşərgənin inhisarı uğrunda mübarizə ilə yadda qalan, şəxsi maraqların vasitəçisinə çevrilən fikir ayrılığı artıq tam aydınlığa qovuşduğu üçün keçmiş "müttəfiqlər" bu cür açıq savaşa başlamaq məcburiyyətindədirlər. Çünki hansısa əməkdaşlıq nağılı artıq partiya üzvlərinə belə inandırıcı görünmür. Yenidən başladılan əks-təbliğat kampaniyası növbəti mərhələyə keçid alıb. Bu kimi davamiyyət isə ənənəvi müxalifətin fiasko tendensiyasının reallaşmasına yetərincə təkan verəcək.

**Rəfiqə HÜSEYNOVA**

# Teyyub Qənioğlu: "Onların pozucu fəaliyyətləri və hərəkətləri lənətlənməlidir"

***Dağıdıcı müxalif partiyaların təsiri altında olan siyasiləşmiş QHT-lər son vaxtlar dövlətimizə və milli maraqlarımıza yönələn şər və böhtan xarakterli fəaliyyətlərini genişləndiriblər. Bu aspektdə qondarma hüquq müdafiəçiləri Xədicə İsmayıl, Leyla Yunus və digərləri daha çox canfəşanlıq edir, hay-küylü dezinfomasiyalarını geniş formada yaymaqda utanıb çəkinmək bilmirlər.***

Araşdırmalara və proseslərə əsaslanaraq, demək olar ki, onları yönəldən Ə.Kərimli, İ.Qəmbər və A.Hacılı olsa da, danışdıran "Soros" fondudur. Daha doğrusu Corc Sorosun qondarma hüquq müdafiəçilərinə ayırdığı vəsait onları ölkəmizə qarşı əsassız ittihamlar səsləndirməyə həvəsləndirib. Məsələyə münasibət bildirən Təkamül Partiyasının sədri Teyyub Qənioğlu "Səs" qəzetinə açıqlamasında bildirdi ki, milli maraqlara qarşı qərəzli mövqe sərgiləyənlər satqın və xəyanət yolu tutanlardır: "X.İsmayıl və L.Yunus kimilərinin Azərbaycana qarşı şər və böhtan xarakterli ittihamlar səsləndirməsi məhz Soros fondunun və digər qərəzli təşkilatların sifarişləri və göstərişləridir. Məsəl var, deyərlər, "həmişə hər kəs öz mərəzindən danışır, heç kəs öz mərəzindən əl çəkmir". İndi bunların mərəzləri budur. Yəni adları çəkilənlərin mərəzləri odur ki, aldıqları maliyyə vəsaiti hesabına Azərbaycan haqqında reallığı özündə əks etdirməyən fikirlər səsləndirərək, Azərbaycan dövlətini gözdən salmağa çalışırlar. Çünki kim pul verirsə, musiqini də o sifariş edir. Bunlar kimin hesabına xaricdə - Avropada belə firavan həyat sürürlər? Fakt budur ki, bunlar "Soros" fondu kimi fondlardan, yəni ermənilərin maliyyələşdirdikləri fondlardan aldıqları maliyyə vəsaitləri hesabına bu cür firavan yaşayırlar. Təbii ki, adları çəkilənlərə bu vəsaiti verən şəxslər də, həmin maliyyə vəsaitinə qarşılıq olaraq, onlardan Azərbaycan haqqında iftira dolu məlumatların səsləndirilməsini istəyirlər. Ümumiyyətlə, həmin qərəzli təşkilatların bu cür çirkin hərəkətlərə əl atmalarının bir səbəbi var ki, o da dünya dövlətlərinin yanında qarayaxma kampaniyası apararaq, Azərbaycan dövlətinin əldə etdiyi uğurlara kölgə salmaqdır. Onların nə demələrindən və nə etmələrindən asılı olmayaraq, Azərbaycanla bağlı məkrli siyasətlərini heç vaxt həyata keçə bilməzlər. Çünki Azərbaycanda xalq-hakimiyyət birliyi möhkəm əsaslara söykənir. Əslində, onların pozucu fəaliyyətləri və hərəkətləri lənətlənməlidir. Amma nə edəsən ki, artıq bu məkr Xədicə İsmayıl və Leyla Yunusun mərəzləridir. Bunların öz mərəzlərindən əl çəkmələri onların ömürlərinin sonu demək olacaqdır".



T.Qənioğlu onu da bildirdi ki, düşmən olan şəxslərin, lazım gələndə, bir-birilər ilə dost olmaları, onları maliyyələşdirənlərin xarici təşkilatların tələbi ilə bağlıdır: "Yəni onları maliyyələşdirən tərəflər təhrik edirlər ki, bu və ya digər situasiyada mütləq eyni mövqedən çıxış edərək, bir-birilərini dəstəkləyirlər. Belə olan halda da dağıdıcı müxalifət düşərgəsini təmsil edən həmin şəxslər də bir-birilərini gözləri götürməsələr belə, onlara verilən tapşırığa əsasən, bir-birini dəstəkləyən açıqlamalar verir və fikirlər səsləndirirlər. Bu isə, körpələrin "evcik-evcik" oyunu oynamalarına bənzəyir".

**GÜLYANƏ**

# Azərbaycanın nikah adətləri: dünən və bu gün

***Tarixi və hüquqi kateqoriya olan nikah kişi ilə qadının intim münasibətlərini rəsmiləşdirən aktdır. İnsan cəmiyyətinin inkişaf tarixində müxtəlif nikah formaları mövcud olmuşdur. İ.Bahoven, C.Mak-Lennan, L.Morqan və F.Engelsin əsərlərində və klassik etnoqrafik ədəbiyyatda ayrı-ayrı xalqlar içərisində mövcud olmuş qrup nikahlar, qoşa nikahlar, punalua və s. nikah formaları haqqında məlumat verilir. İbtidai nikah formaları, ehtimal ki, Azərbaycan xalqının uzaq keçmişinə də aiddir. E.ə. I əsrin sonu - eramızın I əsrinin əvvəllərində yaşamış yunan coğrafiyaçısı Strabonun əsərlərində madalılarda poliqamiya (çoxarvadlılıq) nikah formasının olması haqqında məlumat vardır. Ola bilsin ki, Albaniyada da IV əsrədək poliqamiya nikah forması olmuşdur.***

Bu ehtimal xristian dininin təkkəbinliliyi məcburi nikah forması elan etməsi ilə əsaslandırılır və belə bir nəticə çıxarılır ki, bu qadağanın səbəbi Albaniyada əvvəllər çoxarvadlılığın mövcudluğu ola bilərdi. Qədimdə Albaniyada çoxarvadlılığın mövcudluğu haqqında qaynaqlarda konkret fakt yoxdur. "Kitabi-Dədə Qorqud" dastanında da monoqam nikahlar tərənnüm edilir. Dastanda Dirsə xan övladı olmayan arvadını, hətta "baxtımа çıxan qadınım" adlandırır və onun üstünə günü gətirmək fikrinə belə düşmür. O, yalnız bütün Oğuz bəylərinə qonaqlıq verir, acları doydurur, çılpaqlara paltar verir və borcluların borcunu ödəyir ki, ulu Tanrıya dua edib, ona övlad diləsinlər.

Orta əsrlərdə də təkarvadlılıq Azərbaycanda əsas nikah forması olmuşdur. "Koroğlu" dastanında qəhrəman Koroğlu ilə Nigar xanımın övladları olmur. Onlar həyatlarındakı bu boşluğu igid Eyvazı oğulluğa götürməklə doldurur və monoqam ailəni qoruyub-saxlayırlar. Orta əsrlərdə monoqamiya ilə yanaşı, poliqamiyanın qalıqlarına da rast gəlinir. Orta əsrlər Azərbaycan şifahi xalq ədəbiyyatında azad sevgiyə əsaslanan monoqam nikahlar təbliğ olunsa da, məhəbbət dastanlarının dördündə poliqam nikahlardan söhbət gedir. Belə ki, "Şah İsmayıl", "Əmrah", "Lətif şah" və "Valeh-Zərnigar" dastanlarında qəhrəmanların yalnız bir sevgilisi olur və öz sevgililərinin dalınca gedən qəhrəmanlar, sevgililərinə qovuşana qədər başqa qızlarla tanış olub müəyyən səbəblərlə bağlı onlarla evlənməyə söz verirlər. Dastanların qəhrəmanları Şah İsmayıl-Gülzar, Ərəbzəngi və Rəmdar Pəri, Əmrah-Sayad, Pəri və Sərvinaz, Lətif şah-Mehriban, Soltan və Əsma, Valeh-Sənəm, Zərnigar və Xətai ilə ailə qururlar. Deməli, poliqam nikah qədim dövrdə Azərbaycanda mövcud olmuşsa da, sonralar aradan çıxmış və orta əsrlərdə yalnız qalıqlar şəklində qalmışdır.

Orta əsrlərdə Azərbaycanda poliqamiyanın qalıqlarının saxlanması səbəbini çox vaxt islam dini ilə bağlayırlar. Doğrudur, poliqamiya islam ailə hüququna zidd deyil. İslam ailə hüququ müsəlmana rəsmi surətdə dörd arvad almağa icazə verir. Lakin poliqam nikahı, çoxarvadlılığı müsəlman xalqları arasında islam bərpa etməmişdir. Çünki islam ehkamları nikahı kişi və qadının şəhvət hissləri ilə bağlamır. Poliqam nikah müsəlman xalqlarının çoxunun, o cümlədən, ərəblərin arasında hələ islamaqədərki dövrdə geniş yayılmış nikah forması olmuşdur. İslam dini ailənin möhkəmliyini qorumaq məqsədilə kişiləri qadınlara qarşı ədalətli olmağa çağıraraq, çətin şərtlər qoymaqla poliqamiyanı məhdudlaşdırmağa cəhd göstərmişdir. Məhz bu məqsədlə "Qurani-Kərim"də deyilir: "Əgər (onunla) ədalətlə dolanmağa əmin deyilsinizsə, o halda, təkcə bir (azad) qadın və ya sahib olduğunuz kənizlə evlənin". Deməli, islam dininin müsəlman ölkələrində poliqam nikah formasının bərpasında deyil, 2, 3 və ya 4 arvad almağa icazə verməklə, onun saxlanmasında müəyyən rolu olmuşdur.

İslamın şəriət qanunlarına görə bir neçə arvad almış kişi, "Qurani-Kərim"də deyildiyi kimi, qadına qarşı ədalətsizliyə yol verməmək məqsədilə, hər bir arvadı üçün ayrıca ev düzəltməli idi, yəni arvadların sayı qədər iki, üç və ya dörd ailə saxlamalı idi. Deməli, poliqam nikah əsasında vahid ailə deyil, bir neçə ailə yaranırdı və bu ailələr ayrı-ayrılıqda yaşadıqlarından, çox vaxt müxtəlif təsərrüfatlar olduqlarından, onları bir böyük ailə adlandırmaq düzgün olmazdı. Bu xüsusiyyət aydın göstərir ki, Azərbaycanda poliqamiya ailə forması deyil, nikah forması olmuşdur.

Azərbaycanda poliqamiya, əsasən, ikiarvadlılıq şəklində yayılmışdı. Ruhanilər və bəzi varlı şəxslərlə yanaşı, ortabab və yoxsul əhali arasında da müəyyən səbəblərlə əlaqədar yaranmış ikiarvadlılıq halları olmuşdur. Əhalinin bu zümrəsi arasında ikiarvadlılığın əsas səbəbi kişinin birinci nikahdan övladının olmaması, yaxud yalnız qız uşaqlarının olması idi. Uşaqsızlıqla əlaqədar kişinin birinci arvadının üstünə günü (ikinci arvad) gətirməsi müxtəlif sonluqlarla nəticələnirdi. Kişi şəriətin ona verdiyi hüquqdan istifadə edərək, ikinci arvad aldıqda, çox vaxt birinci arvad üstünə günü gətirilməsi ilə razılaşmaq istəmirdi. İkinci arvadın özü də günü vəziyyətindən xoşhallanmırdı. Evdə günü arvadlar arasında tez-tez dava-dalaş baş verirdi. Onların biri digərini ərinin gözündən salmağa çalışırdı. Çox vaxt ər ikinci arvadın tərəfini saxlayır və birinci arvadı boşayırdı. Bu halda, poliqamiya davam etmirdi və ikiarvadlılığa çevrilmirdi. Bəzən günü arvadlar bu dava-dalaşa adət edirdilər və ailədə belə gərginlik ömürlərinin axırına qədər davam edirdi. Bu halda, poliqamiya ikiarvadlılığa çevrilirdi. Bəzən də uşağı olmayan arvad ərinin yenidən evlənməsinə razılıq verir və əri ikinci dəfə evləndikdə, boşanıb öz atası evinə qayıdırdı. Bu halda, poliqam nikah baş vermirdi.

Qəzənfər Rəcəbli yazır: "Ailə həyatında elə hallar da olmuşdur ki, uşağı olmayan ağıllı qadın özü ərinə ikinci arvad almasını təklif etmiş və ərinin razılığı ilə ailədə qalıb ev işlərində əsas rol oynamış, günüsü ilə mehriban rəftar etmiş, hətta ərinin ikinci arvaddan olan uşaqlarına öz doğma övladları kimi münasibət bəsləyərək, onların tərbiyəsi ilə məşğul olmuşdur. Belə hallarda poliqamiya ikiarvadlılığa çevrilirdi. Poliqam nikah əsasında yaranmış belə ailəni böyük ailə formasına aid etmək olmaz. Əslində, belə ailə poliqam nikah əsasında genişləndirilmiş, üç nəsildən ibarət vahid kiçik ailədir.

Poliqamiya levirat adəti ilə də bağlıdır. Kiçik uşaqları olan qardaşlardan biri cavan yaşlarında vəfat etdikdə və onun subay qardaşı olmadıqda, evli qardaşlardan biri mərhum qardaşının uşaqlarını saxlamaq məqsədilə onun dul qalmış arvadı ilə evlənirdi. Adət buna yol verdiyinə görə, camaat ona pis münasibət bəsləmirdi. Poliqam nikah əsasında levirat adəti ilə bağlı yaranmış belə ailəni, iki ailədən ibarət olduğuna görə, böyük ailə formasına aid etmək olar.

Nikah formalarından bəhs edərkən, "siğə" adlanan müvəqqəti nikaha toxunmamaq olmaz. Siğə islam dininin şiə təriqətinə mənsub olan ruhanilər və tacirlər üçün səciyyəvi olmuş müvəqqəti nikah qaydasıdır. Siğə qaydasına görə, kişi mollanın yanına gedib müvəqqəti yaşamaq istədiyi qadının adını deyir və kəbin kəsdirirdi. Siğə yalnız qadının icazəsi ilə bağlana və istənilən vaxt tərəflərin hər birinin təşəbbüsü ilə pozula bilərdi. Siğə nikahdan uşaq olduqda, kişi həmin uşağı kənar yerdə saxlayırdı. Azərbaycanda siğə nikah qaydası geniş yayılmamışdı. Xalq arasında siğə nikahla yaşayan qadınlara pis münasibət bəslənirdi. Siğə nikahdan olan uşaqlara "bic", "bicbala", "bicvələd", "düşəngə" və s. təhqiredici ad verilirdi. Azərbaycanın mütərəqqi fikirli şair və yazıçıları, mütəfəkkirləri həmişə siğə nikahlara qarşı çıxmış, öz əsərlərində siğəni pisləmişlər".

Nikah adətləri arasında qohumla evlənməyə münasibət əsas yer tutur. Qohumla evlənmə adəti qohumla evlənməyə yalnız icazə verir və onu məcburi saymır. Bu adət qohum olmayanlarla evlənməyi qadağan etsəydi, onu endoqamiyanın qalığı adlandırmaq olardı, çünki söhbət qəbilətayfa icmasından deyil, müasir qohum ailələrdən gedir. Bu sözləri ekzoqamiya haqqında da demək olar. Qohum ilə evlənməyi qadağan edən adət olsaydı, onu ekzoqamiyanın qalığı adlandırmaq olardı. V.Kurılyov "Kitabi-Dədə Qorqud" dastanındakı İç Oğuz bəylərinin Daş Oğuzdan, Daş Oğuz bəylərinin isə İç Oğuzdan evlənmələri haqqında bir məlumatdan belə yanlış nəticə çıxarır ki, Azərbaycanın bu qədim dastanında bir nəsildən törəmiş və endoqam nikahın hökm sürdüyü vahid Oğuz tayfasının ekzoqam nikaha əsaslanan iki fratriyası və qəbiləsi təsvir olunmuşdur. Əslində isə, Azərbaycan oğuzlarının nikah münasibətlərində endoqam və ekzoqam xarakterli qəti qadağalar olmamışdır. Belə ki, Qanturalı evlənmək üçün öncə İç Oğuzdan qız axtarır. Deməli, qəbilənin üzvü ilə nikahı qadağan edən və yalnız qəbilədənkənar evlənməyə icazə verən ekzoqam nikah forması Azərbaycan oğuzları arasında olmamışdır. Qanlı Qoca sonra həm İç Oğuzda, həm də Daş Oğuzda oğlunun arzu etdiyi kimi qızı arayıb tapmadıqda, Qalın Oğuz elindən kənara çıxır və nəhayət, Trabzonda belə bir qıza rast gəlir. Qanturalı atasının tapdığı Selcan adlı həmin qızla evlənir. Bu amil göstərir ki, yalnız tayfa daxilində evlənməyi tələb edən endoqam nikah forması da Azərbaycan oğuzları arasında olmamışdı.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

## Yuxuya nəzarət edən “ağıllı” üzük



Kiçik kapsulun içərisinə yerləşdirilmiş çoxsaylı sensor yuxu zamanı insan haqda məlumatları toplayır. Bunun üçün, sadəcə, yatmazdan öncə “Go2sleep” qurğusunu barmağa taxmaq lazımdır. “Ağıllı” üzük yuxunun keyfiyyətini qiymətləndirmək üçün ürək ritminə, qanda oksigenin miqdarına, arterial nəbz siqnalının gücünə müntəzəm nəzarət edir. Bütün məlumatlar sadə süni intellekt vasitəsilə emal olunur.

AZƏRTAC “hi-tech.mail.ru” saytına istinadən xəbər verir ki, cihaz yuxu ilə bağlı mümkün problemləri, o cümlədən apnoe xəstəliyini müəyyənləşdirməyə kömək edir. Bu xəstəlik zamanı insan yuxuda çətin nəfəs alır, xoruldayır və hətta boğula bilər. “Go2sleep” qurğusu “Bluetooth” texnologiyasının köməyilə smartfona qoşulur və yuxu barədə məlumatları mobil proqrama ötürür. “Ağıllı” üzük enerji doldurulmadan üç gecə işləyir. Qurğunun ilkin sifariş qiyməti 89 dollardır.

## Arı südü orqanizmdən toksinləri təmizləyir

Arı südünü “kral jelesi” də adlandırırlar. Təzə arı südü qatı, qeyri-şəffaf sarımtıl boz rəngli, spesifik ətrə və turş dada malik mayedir və qaymağı xatırladır. Arı südü qiymətli xammaldır, arı sürfələrinin və ana arının qidalanması üçün işçi arıların yuxarı çənələrindəki vəzlər tərəfindən ifraz olunur.

AZƏRTAC xəbər verir ki, biologiya üzrə fəlsəfə doktoru Mahmud Hümbətov arı südü barədə danışarkən deyib: “Arı südü yumurtadan yeni çıxmış sürfələrin və ana arının yemlənməsi üçündür. Ana südü ilə qidalanma müddətindən asılı olaraq yumurtadan işçi arı və ana arı çıxa bilər. Arılar ana arı çıxacaq yumurtaları xüsusi üskükvari yuvaya qoyur və işçi arılar onu arı südü ilə doldururlar. Ana arı yalnız ana südü ilə qidalandığından işçi arıdan 5 gün tez yetişir, iki dəfə böyük olur və 5-6 il yaşayır. İşçi arı yalnız üç gün südlə qidalanır və 40-45 gün ömür sürür. Arı südü zülal və digər qidalı elementlərlə zəngindir və körpə sürfələrin qidalanması üçün əvəzedilməzdir, güclü bakteriostatik və bakteriasid xassəyə malikdir. Arı südü hətta durulaşmış halda da güclü antibiotik olan karbol turşusundan on dəfə təsirlidir. Arı südü gümrahlıq gətirir, orqanizmin tonusunu yüksəldir, görməni, yaddaşı, iştahanı, toxuma və hüceyrələrdə mübadilə prosesini yaxşılaşdırır, orqanizmdən zəhərli maddələri, toksinləri və ağır metal duzlarını təmizləyir. Hətta bir sıra alimlərin fikrincə, arı məhsullarından istifadə etməklə sonsuzluq diaqnozu qoyulmuş qadınlarda çox yaxşı nəticə əldə etmək olar.

Arı südü kompleks müalicədə antibiotiklərin təsirini artırır, digər dərmanların tez təsir etməsinə kömək edir. Arı südündən həb, iynə, sirop və məlhəm formasında müxtəlif preparatlar hazırlanır”.

“Arı südü şəkərli diabetin, prostat vəzi xəstəliklərinin profilaktikasında, süd verən analarda süd ifrazının normallaşmasında, hətta genetik xəstəliklərin müalicəsində geniş istifadə olunur. Hazırda onun hazırlanması və istifadə edilməsi sahəsində Yaponiya dünyada liderlik edir. Sonrakı yerləri ABŞ, Avstraliya, daha sonrakı yerləri Avropa ölkələri tutur. Yaponiyada ölkənin hər sakininə səhiyyə nazirliyinin nəzarəti altında 50-70 qram bal, 50-100 milliqram arı südü müntəzəm olaraq verilir. Heç də təsadüfi deyildir ki, Gündoğar ölkə uzunömürlülüyə görə də dünyada birinci yerdə gedir”, - deyə bioloq-alim söhbətini yekunlaşdırıb.

## Avroliqada 1/16 finalın 16 iştirakçısı məlumdur

Futbol üzrə UEFA Avropa Liqasında qrup mərhələsinin 5-ci turunun oyunları keçirilib. Qol.az-ın məlumatına görə, 12 qrupda ümumilikdə 24 matç oynanılıb. Bu turdan sonra 1/16 finala yüksələn komandaların sayı 16-a çatıb: “Vilyarreal”, “Dinamo” (Kiyev), “Partizan”, “Braqa”, “Milan”, “Atalanta”, “Lion”, “Styaua”, “Viktoriya”, “Arsenal”, “Zalsburq”, “Ostersun”, “Latsio”, “Nitsa”, “Zenit” və “Real Sosyedad”dı.



# 2017-ci il Formula-1 Azərbaycan Qran-Prisinin qalibi Bakıya gələcək



***“Red Bull Racing” komandasının pilotu Daniel Rikkiardo 2017-ci il Formula-1 Azərbaycan Qran-Prisində qələbə qazandıqdan sonra ilk dəfə Bakıya səfərə gələcək. AZƏRTAC xəbər verir ki, noyabrın 29-30-da ölkəmizdə olacaq avstraliyalı Formula-1 pilotu paytaxtda bir sıra görüşlər keçirəcək və Azərbaycan mədəniyyəti ilə yaxından tanış olacaq.***

Formula-1 azarkeşlərinin sevimlisi Daniel Rikkiardo paytaxtda olarkən Bakı şəhər halqasında (BŞH) keçirdiyi yarış təəssüratlarını avtoidman həvəskarları ilə bölüşəcək və BŞH-nin sosial media kanallarında canlı olaraq azarkeşlərin suallarını cavablandıracaq. Həmçinin D.Rikkiardo səfər təəssüratlarına dair yerli və xarici media nümayəndələri üçün keçiriləcək mətbuat konfransında da iştirak edəcək.

BŞH-nin marketinq və kommunikasiya şöbəsinin rəhbəri Nigar Arpadarai Daniel Rikkiardonun Bakıya səfərini ölkəmizi daha geniş ictimaiyyətə tanıtmaq baxımından yüksək qiymətləndirib: “Biz böyük məmnuniyyətlə avtoidman həvəskarlarının diqqətinə çatdırırıq ki, 2017-ci il Formula-1 Azərbaycan Qran-Prisində möhtəşəm qələbə qazanmış Daniel Rikkiardo yenidən gözəl paytaxtımızda olacaq. Onun Bakıya səfəri ölkəmizin qonaqpərvərliyini və zəngin tarixi mədəniyyətini bütün dünyaya tanıtmaq baxımından əvəzolunmaz fürsətdir. Bakıda bu il baş tutan Qran-Pri yarışı bütün avtoidman ictimaiyyəti tərəfindən 2017-ci il Formula-1 dünya çempionatının sürpriz və həyəcanla dolu ən baxımlı yarışı kimi qəbul olunub. D.Rikkiardonun Bakıya səfəri gələn il apreldə keçiriləcək növbəti Azərbaycan Qran-Prisinə böyük diqqət və maraq oyadacaq. BŞH-nin bütün kollektivi gözəl paytaxtımızı bir daha bütün dünyaya ən gözəl şəkildə təqdim etmək üçün səbirsizlənir. Yarışa biletlər artıq satışdadır və fürsətdən istifadə edərək bütün sürət həvəskarlarını Bakıda keçiriləcək növbəti möhtəşəm yarışa bilet almağa dəvət edirəm”.




# Ronaldo Çempionlar Liqasında həftənin ən yaxşı futbolçusu seçilib

Futbol üzrə UEFA Çempionlar Liqasında həftənin ən yaxşı futbolçusunun adı açıqlanıb. UEFA-nın saytında yer alan xəbərə görə, azarkeşlər arasında keçirilən səsverməyə əsasən, “Real”ın hücumçusu Kriştiano Ronaldo ən yaxşı oyunçu seçilib. Portuqaliyalı futbolçu Neymar (PSJ), Robert Levandovski (“Bavariya”), Yannik Karrasko (“Atletiko”), Eden Hazard (“Çelsi”), Timo Verner (“Leyptsiq”), Harri Keyn (“Tottenhem”) və Lorenso İnsinyeni (“Napoli”) qabaqlayıb. Qeyd edək ki, Ronaldo APOEL-ə 6:0 hesabı ilə qalib gəldikləri görüşdə 2 qol vurub və 1 məhsuldar ötürmə edib.

# Cüdo üzrə Bakı çempionatına yekun vurulub



“Sərhədçi” İdman Olimpiya Mərkəzində keçirilən kişilər və qadınlar arasında cüdo üzrə Bakı çempionatına yekun vurulub. AZƏRTAC xəbər verir ki, iki gün davam edən yarışın sonuncu günündə kişi cüdoçular arasında 5 çəki dərəcəsində qaliblərin adlarına aydınlıq gəlib. Azərbaycan Cüdo Federasiyası, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin təşkilatçılığı ilə keçirilən turnirdə Kərim Abdullayev (73 kq), İsmayıl Priyev (81 kq), Qurban Qurbanov (90 kq), Cəfər Əkbərli (100 kq) və Camal Feyziyev (100 kq-dan yuxarı) çempion olublar.

Paytaxt çempionatının qalib və mükafatçılarına medallar və diplomlar təqdim olunub. Yarışda yaxşı nəticə göstərən cüdoçular gələn ay keçiriləcək Azərbaycan çempionatında mübarizə aparacaqlar. Qeyd edək ki, Bakı çempionatında 24 klubdan 219 kişi və 23 qadın cüdoçu medallar uğrunda mübarizə aparıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.
Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**